# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

07-08 (80-81) 06 may 2017-ci il

İctimai-siyasi qəzet


## *XÜSUSİ BURAXILIŞ*



### *1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər İkinci Dünya müharibəsində Qələbənin 72-ci ildönümü ilə əlaqədar qərara alıram:

1. 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına 1000,0 (min) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500,0 (beş yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

2.1. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 7,2 milyon (yeddi milyon iki yüz min) manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 aprel 2017-ci il.*

***Bu gün 9 May günüdür!***
***Tarixlərin sınağından,***
***keçib gəlir gör neçə il...***
***O, QƏLƏBƏ sədasıdır,***
***unudulan, ötən deyil!***



# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü qeyd edilib

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə aprelin 12-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında anım mərasimi keçirilib.***

Əvvəlcə Ulu öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra kinorejissor Vaqif Mustafayevin xalqımızın Ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan "Əsl məhəbbət haqqında" sənədli televiziya filmi nümayiş etdirilib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək ulu öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti barədə geniş məlumat verib. "Ulu öndər Heydər Əliyev zamanın fövqündə duran, illər keçdikcə dühası və əzəməti daha parlaq şəkildə görünən qüdrətli şəxsiyyətlərdəndir", - deyən C.Xəlilov vurğulayıb ki, Ümummilli Lideri xalqın, dövlətin tarixində əbədi yaşadan mühüm cəhətlərdən biri onun Azərbaycanın ən çətin zamanlarında xalqı və dövləti düşdüyü bəladan qurtarması, onu yeni inkişaf mərhələsinə çıxarmasıdır. Tarixi yaradan, onun gedişini dəyişməyə qadir insan kimi Heydər Əliyevin adı dünyanın ən böyük dövlət adamları olan Bismark, Atatürk, Adenauer və digər tarixi şəxsiyyətlərlə bir sırada çəkilir.

Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi dərin ictimai-siyasi, sosial-iqtisadi problemlərə, cəbhədəki uğursuzluğa, hakimiyyət böhranına, vətəndaş müharibəsi təhlükəsinə toxunan C.Xəlilov bildirib ki, belə ağır vəziyyətdə xalqın imdadına məhz ulu öndər Heydər Əliyev yetişdi. Dahi rəhbər xalqın təkidli dəvətini qəbul edib 1993-cü il iyunun 9-da Bakıya gəldi, bununla da daxili və xarici düşmənlərimizin bütün planları puça çıxdı. Xilaskarlıq missiyasını üzərinə götürən Ulu öndər vətəndaş qarşıdurmasının qarşısını aldı, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bundan sonra Azərbaycan gələcəyə inamla baxan qüdrətli dövlətə çevrilmək yoluna qədəm qoydu.

Məruzəçi daha sonra Azərbaycanın bu gün siyasi və iqtisadi sahədə qazandığı böyük uğurlardan, Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə regionun lider dövlətinə çevrilməsindən, dünyanın sürətlə inkişaf edən ölkələri sırasına çıxmasından danışıb.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev kinorejissor Vaqif Mustafayevin ulu öndər Heydər Əliyev haqqında çəkdiyi filmin dahi şəxsiyyətin həyat və fəaliyyətini dolğun əks etdirən ən maraqlı ekran əsərlərindən biri olduğunu vurğulayıb.





Ərəstun Mehdiyev qeyd edib ki, Azərbaycan xalqı zəngin tarixi ərzində bir sıra görkəmli şəxsiyyətlər yetişdirib. Həmin şəxsiyyətlərin arasında ümummilli lider Heydər Əliyevin özünəməxsus yeri var. Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin tarixində silinməz izlər qoyub. Bütün fəaliyyəti dövründə "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" prinsipinə əsaslanan Heydər Əliyev ümumxalq mənafeyini hər şeydən üstün tuturdu. Ulu öndərin həyatına, fəaliyyətinə nəzər salanda bunu aydın şəkildə görmək mümkündür. Heydər Əliyev xalqının Ümummilli Lideri səviyyəsinə yüksələnə qədər mühüm vəzifələrdə çalışıb, zəngin həyat yolu keçib. Xüsusi xidmət orqanlarında uğurlu fəaliyyətdən sonra sovet dövründə Azərbaycana rəhbərlik edib, daha sonra keçmiş SSRİ-nin ali rəhbərlərindən biri olub. Sovet İttifaqının süqutundan sonra müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev fəaliyyətinin hər iki dövründə ölkəmizin dinamik inkişafı, xalqın rifahı üçün yorulmadan çalışıb. Müstəqillik illərində Azərbaycanın beynəlxalq aləmdə tanınmasında və yüksək mövqe qazanmasında ulu öndər Heydər Əliyevin rolu əvəzsizdir. Bu uğurları şərtləndirən əsas amil Heydər Əliyevin həmişə xalqa arxalanması olub.

Prezident Administrasiyasının rəsmisi bildirib ki, dahi şəxsiyyət 1990-cı illərin əvvəllərində Azərbaycanı bütün sahələrdə yaşanan tənəzzüldən, vətəndaş qarşıdurmasından, parçalanmaq təhlükəsindən xilas edib, dövlət çevrilişi cəhdlərinin qarşısını müdrikliklə alıb. Heydər Əliyev məhz xalqa güvənərək respublikada ictimai-siyasi sabitliyi bərqərar edib, Azərbaycanı dinamik inkişaf yoluna çıxarıb, bütün sahələrdə dərin islahatlar həyata keçirib. Ümummilli lider Heydər Əliyev cəmiyyətin bütün təbəqələrini, o cümlədən gəncləri, ziyalıları, müharibə veteranlarını da daim diqqət mərkəzində saxlayırdı. Ulu öndər Heydər Əliyev çıxışlarında vurğulayırdı ki, iqtisadiyyatı güclü olan dövlət xalqın mənafeyinə xidmət etməlidir. Belə dövlət beynəlxalq arenada mövqelərini möhkəmləndirə, ordusunu gücləndirə bilər. Dövlət özünün güclü ordusuna arxalanmalıdır. Dövlətin və xalqın orduya qayğısı yüksək səviyyədə olmalı və bu birlik daim təmin edilməlidir. Bu məsələlərə xüsusi diqqət yetirən Ümummilli Lider dövlət quruculuğu siyasətində həmin prinsiplərin təmin olunmasını daim nəzarətdə saxlayırdı.



"Ötən il biz Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 25 illiyini dövlət səviyyəsində qeyd etdik. Müstəqilliyin bərpasından ötən illər ərzində Azərbaycan sürətlə inkişaf edərək dünya dövlətləri sırasında özünə layiqli yer tutub. Bu uğur dahi rəhbər Heydər Əliyevin əsasını qoyduğu siyasətin müvəffəqiyyətlə həyata keçirilməsi sayəsində əldə olunub. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət hazırda dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir. Məhz bu siyasət sayəsində regionun lider dövləti olan Azərbaycan artıq bölgədə və dünyada mühüm söz sahibinə çevrilib. Azərbaycan dövləti yaşadıqca Ulu öndər Heydər Əliyevin xatirəsi qədirbilən xalqımız tərəfindən daim ən yüksək hörmət və ehtiramla yad ediləcək. Çünki Ümummilli lider Heydər Əliyevin adı Azərbaycan tarixinə və xalqımızın yaddaşına əbədi həkk olunub", - deyə Ərəstun Mehdiyev bildirib.

Sonra Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, "İnterfaks-Azərbaycan" agentliyinin baş direktoru Aleksandr İvanov, veteranlar Vladimir Timoşenko, Tofiq Ağahüseynov, kinorejissor, Xalq Artisti, Dövlət Mükafatı laureatı, Heydər Əliyev haqqında sənədli televiziya filmlərinin müəllifi Vaqif Mustafayev və digərləri çıxış edərək müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında və dünyaya tanıdılmasında Ümummilli liderimizin tarixi xidmətlərindən bəhs edib, Ulu öndərlə bağlı xatirələrini bölüşüblər. Natiqlər vurğulayıblar ki, Ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalan gənclərimiz dahi rəhbərin siyasi xəttini uğurla davam etdirərək, Azərbaycana yeni uğurlar qazandıran Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin inkişafına öz töhfələrini verirlər.

Sonda kinorejissor Vaqif Mustafayevə Respublika Veteranlar Təşkilatının "Veteran həmrəyliyi" medalı təqdim edilib.

# XX əsr Azərbaycan tarixinin görkəmli simalarından sayılan Zərifə xanım Əliyevanın anadan olmasından 94 il keçir





Zərifə xanım Əliyeva elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi. Zərifə xanım sevib seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə bu istedadını tam gerçəkləşdirə bilirdi. Zərifə xanım 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilib.

Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, ulu öndərimizə mənəvi dayaq, arxa olub. Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib. Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi" mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil edib.

1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olub. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməmişdir. Alim dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirib. Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q. Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndiriblər. Zərifə xanım Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi verilib. Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb.

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin "sözlə" müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Onun fikrincə, səhiyyə işçisinin əxlaqının əsaslarını səmimiyyət, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmannasızlıq təşkil edir. Akademik Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, "Əməkdar Elm Xadimi" fəxri adına layiq görülüb. Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Prezidentimiz İlham Əliyevin anasıdır.



Professor N.Şulpina Zərifə xanım Əliyevanı belə xarakterizə edib: "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik. Zərifə xanımın bədii duyumu, bədii istedadı bənzərsiz idi. Zərifə xanım necə böyük məharətlə ifa edir, nəğmələr oxuyurdu. Onun incə barmaqları sürətlə pianonun dilləri üstündə gəzir, toplaşdığımız otağı bəzən gur, bəzən də həzin musiqi sədaları bürüyürdü.Bir qadın kimi də Zərifə Əziz qızı haqqında bir neçə kəlmə deməyə bilmərəm. Təbiət ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Onun görkəmi, qalın saçları, sifətinin qövsvari cizgisi, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri heyranlıq doğurmaya bilməzdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Mən onu heç zaman əsəbi, qəzəbli görməmişəm. O, həmişə gülərüz, xeyirxah idi. Zərifə xanımın əlləri xüsusilə insanı valeh edirdi. Bu balaca qadın-cərrah əlləri sanki təmasda olduğu hər şeyə istilik verirdi, eyni zamanda bu əllərdə ailə qayğılarının, qadın əməyinin izlərini də sezmək mümkün idi. Belə ki, Zərifə xanım yüksək təbəqəyə mənsub olsa da ev işlərindən boyun qaçırmazdı".

Zərifə xanım Əliyeva az yaşadı. O, istedadı və həyat enerjisi ilə gələcəkdə çox işlər görə bilərdi. Ömrünün sonuncu anına kimi o, həyatla, gələcək planlarla yaşayırdı. Zərifə xanım Əliyeva 1985-ci il aprelin 15-də Moskva şəhərində vəfat edib. Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə qalacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

# Xalqımızın qızıl fondu

Azərbaycan bu gün dünya birliyində layiqli yer tutmağa, dünyanın ən qabaqcıl ölkələri ilə bir sırada dayanmağa qadir dövlətdir.

Müstəqilliyin bərpa edilməsinin ilk dövründə respublikamızın qarşılaşdığı çətin şərait, Ermənistanın beynəlxalq hüquq normalarına zidd olaraq ərazilərimizi işğal etməsi işğalçılıq müharibəsi, səriştəsiz ölkə rəhbərliyinin yarıtmaz siyasəti Azərbaycanı parçalanmaq və müstəqilliyini itirmək təhlükəsi qarşısında qoymuşdu. Bunun nəticəsində Azərbaycanın dilbər güşələrindən olan Dağlıq Qarabağ və digər ərazilərimiz Ermənistan tərəfindən işğal olundu.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlməsi ölkədə vəziyyəti kökündən dəyişdi. Azərbaycanda baş verə biləcək vətəndaş müharibəsinin qarşısı alındı. Bu, olduqca mürəkkəb və təzadlı bir dövr idi. Xalqın müdrik oğlu və təcrübəli siyasətçi Heydər Əliyev mahir dövlətçilik memarı kimi Azərbaycan dövlətinin və dövlətçiliyinin mənzərəsini çox aydın şəkildə görür və onun struktur formulasını müəyyənləşdirərək nəyin, necə olmasını dəqiq cizgilərlə qururdu. Hazırki müasir Azərbaycan dövləti onun şah əsəridir. Ulu öndərin həmin dövrdə həyata keçirdiyi siyasət, müəyyənləşdirdiyi inkişaf strategiyası nəticəsində bu gün Azərbaycan müstəqil və yerləşdiyi regionda lider dövlətdir.

Dövlətimizin həyata keçirdiyi uğurlu siyasət hər bir vətəndaşın sosial rifahının yaxşılaşdırılmasına yönəldilmişdir. Sosial yönümlü tədbirlərin bir hissəsi olan veteranlarımızın həyat səviyyəsinin daha da yaxşılaşdırılması daim gündəmdədir. Bu diqqət və qayğı siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün də onun ən layiqli siyasi varisi, dövlət başçısı ilham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə veteranların problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyimizin bərpasının ilk illərində veteranlara olan biganə münasibət hamıya məlumdur. Həmin vaxt rəhbərlikdə olan şəxslər hətta 9 May - Qələbə Gününü ləğv etmək fikrində idilər. Məhz Ümummilli liderimizin ədaləti uca tutması, "tarixinə daş atanı gələcək topa tutar" prinsipinin gözlənilməsi sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılmışdır və az qala unudulmaqda olan 9 May - Qələbə Günü yenidən dövlət bayramları sırasına daxil edilmişdir. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyən Ulu öndər Heydər Əliyev müharibə veteranlarını "xalqımızın qızıl fondu" adlandırmışdır. Müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm işlərin görülməsi, o cümlədən onlara dövlət hesabına mənzil və xüsusi nəqliyyat vasitəsinin verilməsi Ümummilli liderin diqqət mərkəzində olmuşdur. Müdrik dövlət xadimi Heydər Əliyevin 1994-cü il iyunun 28-də imzaladığı "Veteranlar haqqında" Qanunda bu qayğı öz hüquqi əsasını tapmışdır.

Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına yüksək həssaslıqla yanaşır. Hər il olduğu kimi bu il də Qələbə bayramı ərəfəsində 1941- 1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi, 1941- 1945-ci illər Böyük Vətən müharibəsində iştirak etmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, 1941 - 1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi barədə Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamlar Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti bariz nümunəsidir.

Hər il 9 may Qələbə yubileylərinin ölkəmizdə dövlət səviyyəsində qeyd edilməsi xalqımızın qanlı savaşdakı əvəzedilməz rolunun göstəricisidir. Bu danılmaz faktdır ki, Böyük Vətən Müharibəsi xalqımızın tarixinin bir parçasıdır. Bəşəriyyət tarixində bu ən qorxunc müharibədə Azərbaycan xalqı başqa xalqların nümayəndələri ilə çiyin-çiyinə döyüşmüş, əsl mərdlik, igidlik səlnaməsi yazmağı bacarmışdır. Böyük Vətən Müharibəsində qələbənin əldə olunmasına Azərbaycan böyük töhfələr vermiş, 700 minə qədər azərbaycanlı cəbhəyə yollanmış, onların yarısı həyatını itimiş, böyük bir qismi müharibə zədəsi ilə geri dönmüşdür. 130-a qədər həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Partizan hərəkatlarında Fransada, İtaliyada və digər dövlətlərdə faşizmə qarşı mübarizə aparmış həmvətənlərimiz ən yüksək fəxri adlara təltif edilmişlər. Azərbaycan bu müharibədə neft və neft məhsullarına olan tələbatın 80 faizini təmin edib, ölkədə müxtəlif təyinatlı məhsullar istehsal edərək faşizm üzərində qələbənin təminatçısı olmuşdur.



2015-ci il veteranların həyatında ən əlamətdar il kimi xatırlanacaqdır. Çünki Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev veteranları müasir standartlara cavab verən yeni İnzibati bina ilə ilə təmin etmişdir. Binada hər bir şərait yaradılmışdır. Bu, bir daha onu sübut edir ki, Azərbaycan dövləti öz veteranlarına böyük qayğı və diqqət göstərir. Veteranlar yüksək mükafatlarla təltif olunur, onlara minik maşınları verilir. MDB məkanında veteranlara ən yüksək pul mükafatı da məhz Azərbaycanda verilir.



Prezident İlham Əliyevin veteranlar haqqında söylədiyi sözlər hər bir veteran üçün qürürverici idi: "Siz Vətəni müdafiə etmisiniz, qəhrəmanlıq göstərmisiniz və Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Ulu öndər Heydər Əliyevin siyasəti də məhz ondan ibarət idi ki, biz müharibə veteranlarına daim diqqət göstərək".

Biz veteranlar üzərimizə düşən işin məsuliyyətini dərindən başa düşür, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində əlimizdən gələni əsirgəmirik. Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında, mənfur düşmənlərimizin xalqımıza qarşı törətdikləri Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılmasında səylə çalışırıq. Bütün dünya bilməlidir ki, biz müharibə istəmirik, sülhün tərəfdarıyıq, ədalətin öz yerini tapmasını, torpaqlarımızın geri qaytarılmasını, doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın öz ata-baba torpaqlarına qayıtmasını istəyirik. 2016-cı ilin aprel ayında erməni təxribatının qarşısının alınması və düşmənin məğlub edilməsi, yüksəkliklərin ələ keçirilməsi ordumuzun gücünü, xalq və ordunun birliyinin bariz nümunəsi oldu. Aprel döyüşləri sübüt etdi ki, münaqişənin danışıqlar yolu ilə həlli mümkün olmasa hər birimiz Ali Baş Komandanımızın əmri ilə döyüşməyə hər an hazırıq. Müharibənin hər çətinliyinə mərdliklə sinə gərmiş biz veteranlar, hər zaman möhtərəm dövlət başçısının həyata keçirdiyi siyasəti dəstəkləyirik. Bu gün xalqımızın və həmçinin biz veteranların sosial problemlərinin həlli, təqaüd və müavinətlərinin artırılması, sosial yönümlü layihələrin həyata keçirilməsi istiqamətində gördüyünüz işlərə, o cümlədən çoxsaylı üzvləri olan təşkilatımızın fəaliyyəti üçün yaradılan şəraitə, bizə göstərilən dəstəyə görə Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan möhtərəm İlham Əliyevə öz dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Respublikamızın daha da qüdrətlənməsi istiqamətində gördüyü işlərdə ona yeni uğurlar arzulayırıq. Biz həmişə Sizinləyik!...

*DADAŞ RZAYEV,*
*e.o. general-mayor,*
*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri*

# Respublika Veteranlar Təşkilatı ictimai həyatın ön sırasında

Respublika Veteranlar Təşkilatı ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rola malik olan təşkilatlardan biridir. Təşkilat ətrafında birləşdirdiyi veteranlarla hər zaman Azərbaycan xalqına və dövlətinə dəstək olmuş, dövlətçiliyimizin möhkəmlənməsində əlindən gələni əsirgəməmişdir. Çoxsaylı və müxtəlif kateqoriyadan olna veteranların təcrübəsini, vətənpərvərliyini gənclərə aşılamaq Təşkilatın qarşısında duran əsas məsələlərdəndir. Bu gün biz fəxrlə deyə bilərik ki, Respublika Veteranlar Təşkilatı üzərinə düşən işin məsuliyyətini dərk edərək onu layiqli formada gənc nəslə çatdırmağı bacarır. Azərbaycanın hər bir bölgəsində olan hərbi hissələrdə, ali təhsil ocaqlarında, məktəblərdə gənclərlə görüşlərin keçirilməsi deyilənlərin sübutudur. Dövlət qurumları və digər müxtəlif qurumlarla birgə həyata keçirilən tədbirlər Təşkilatın fəaliyyətinin uğurundan və kollektivin məsuliyyətindən xəbər verir. Son dövrlərdə təşkilat bir sıra əlamətdar tədbirlər keçirmişdir. Bu tədbirlərdə İkinci Dünya müharibəsi, əmək, Əfqanıstan, Qarabağ, Silahlı Qüvvələr, Hüquq-mühafizə orqanları veteranları, Təşkilatın rəhbərliyi, əməkdaşları, rayon Veteran Təşkilatlarının sədrləri, nümayəndələri, ziyalılar, gənclər, media nümayəndələri, o cümlədən, digər mötəbər şəxslər iştirak edirlər. Təşkilat həm də beynəlxalq əlaqələrini günün-gündən gücləndirir, beynəlxalq səviyyəli tədbirlər təşkil



olunur, xaricdən gələn qonaqlar qəbul edilir, ölkəmiz və veteranların bu günki həyat səviyyəsi haqqında informasiyalar verilir. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında tədbirlərin rolu əvəzedilməzdir.

Respublika Veteranlar Təşkilatı bugün nəinki Azərbaycanın eləcə də, MDB ölkələri içərisində ən aparıcı və güclü nüfuza malik olan Təşkilatdır. Prezident İlham Əliveyin 2015-ci ildə açılışını etdiyi Respublika Veteranlar Təşkilatının inzibati binası hər cür maddi-texniki baza ilə təmin edilmiş, ən müasir tələblərə cavab verən iş otaqları, tədbirlərin həyata keçirilməsi üçün geniş toplantı zalı, eləcə də, veteranların istirahəti və sağlamlığı üçün yaradılmış şərait hər bir veteranda qürür hissi doğurur. Bütün bunlar veteranlara və onların üzvləri olduğu təşkilata dövlət qayğısından xəbər verir. Hər il ölkə prezidenti İlham Əliyevin və birinci vitse prezident Mehriban Əliyevanın veteranlarla görşüb onların problemləri ilə yaxından maraqlanması respublikamızda veteranlara göstərilən diqqət və qayğıdan xəbər verir. Veteranların maddi durumlarının və məişət şəraitinin yaxşılaşdırılması, mənzil və avtomobillə təmin edilməsi isə buna əyani sübutdur.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı ölkə rəhbərliyinin göstərdiyi etimadı bu günə qədər doğrultmuşdur və bundan sonrada Təşkilat üzərinə düşən şərəfli məsuliyyətin öhdəsindən layiqincə gələcəkdir.

# Qələbənin 72-ci ildönümü münasibətilə Ukraynada görüşlər

Artıq bir neçə ildir ki, Ukraynanın "İnter" telekanalı İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin ildönümləri münasibəti ilə silsilə tədbirlər keçirir. Bir qayda olaraq bu tədbirlərdə MDB ölkələrinin İkinci dünya müharibəsi veteranları, veteran təşkilatlarının nümayəndələri iştirak edirlər. Həmin tədbirlər zamanı "İnter" telekanalının 9 may, xüsusi bayram verilişlərinin hazırlanması məqsədi ilə veteranlarla müxtəlif görüşlər təşkil olunur, onlardan keçdikləri döyüş yollarını, mənsub olduqları ölkənin hakimiyyət orqanlarının və veteran təşkilatlarının veteranlara münasibətini əks etdirən müsahibələr götürülür.

İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü ilə bağlı aprel ayının 17-21-də Ukraynanın paytaxtı Kiyev şəhərində baş tutan növbəti tədbirlərdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının nümayəndələri də iştirak etmişlər. Tədbirdə Respublika Veteranlar Təşkilatını İkinci Dünya müharibəsi veteranı Bəkir Məmmədov və RVT-nin şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev təmsil etmişlər.

İlk tədbirdə "İnter" telekanalının 2015-ci ildə Ukraynanın alman faşizmindən azad olunmasının 70 illiyi münasibətilə başladığı layihə çərçivəsində nəşr edilmiş "Qələbənin insanları. Yaşayacağıq" fotoalbomunun ikinci cildinin təqdimatı keçirilmişdir. Layihə rəhbəri Anna Bezlyudnya, baş redaktoru Anton Nikitin olan bu cildə İkinci Dünya Müharibəsinin 100 nəfər günümüzə qədər sağ qalan (təəssüf ki, tədbirə qədər həmin veteranlardan 7 nəfəri vəfat etmişdi) iştirakçısı barədə geniş materiallar və fotoşəkillər daxil edilmişdir. 212 səhifədən ibarət olan fotoalbom həmin döyüşçülərin döyüş yolunun və müharibədən sonrakı həyatının ən mühüm və təsirli məqamlarını əks etdirir. 100 insan taleyindən söhbət açılan Fotoalbomu həyəcansız vərəqləmək mümkün deyil.

Respublika Veteranlar Təşkilatının şöbə müdiri Lətif Babayev tədbirə qatılan Ukrayna, Gürcüstan, Moldova, Belarus veteran təşkilatlarının nümayəndələri ilə iki və çoxtərəfli əməkdaşlıq əlaqələrinin hazırkı vəziyyəti və gələcək inkişafı perspektivlərini müzakirə etmiş, Azərbaycanın İkinci Dünya müharibəsində iştirakı ilə əlaqəli ucaldılmış abidələrin, komplekslərin, muzeylərin və ayrı-ayrı döyüşçülərlə bağlı xatirə yerlərinin qorunmasından, daim qayğı ilə əhatə olunmasından danışmışdır. Eləcə də, Azərbaycan Veteranlar Təşkilatının xüsusilə MDB ölkələrinin müvafiq təşkilatları ilə əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verdiyini, ötən illərdə Təşkilatın bu istiqamətdə fəaliyyətinin daha səmərəli qurulduğunu vurğulamış, göstərilən məsələlərdə fəallığı xalqlarımızın birgə tarixi keçmişi, bu ənənələrin yaşadılmasının mühüm əhəmiyyət kəsb etməsi ilə əlaqələndirmişdir.

Tədbirlərin 3-cü günü "İnter" telekanalının 9 may verilişlərində nümayiş etdiriləcək 4 saatlıq xüsusi konsert proqramı nümayiş etdirilmişdir. Ukraynanın tanınmış musiqiçilərinin ifasında səslənən vətən, torpaq, müharibə, qələbə, gənclik, sevgi və s. mövzuları əhatə edən bu mahnılar iştirakçıların ürəyincə olmuş, veteranlar dəfələrlə ayaqüstə onları alqışlamışlar. Müharibəyə aid təsirli səhnələrdən ibarət olan süjetlər, dekorativ səhnələr həmin günlərin canlı şahidlərini daha da təsirləndirmiş, bir sıra nömrələr göz yaşları ilə müşayiət edilmişdir.

Azərbaycan nümayəndələri müsahibələr və söhbətlər zamanı "İnter" telekanalının əməkdaşlarına



İkinci Dünya müharibəsində faşizm üzərində qələbəyə Azərbaycanın verdiyi töhfələrdən, azərbaycanlıların qəhrəmancasına vuruşmasından, qanlı döyüşlərdə 320 minə yaxın soydaşımızın həyatlarını itirməsindən danışmış, bəşəriyyətin dəhşətli bəladan xilasında xalqların birgə nailiyyətinə verilən digər töhfələrdən bəhs etmişlər. Həmçinin Azərbaycanda 9 may Qələbə gününün hər il böyük təntənə ilə qeyd edildiyi, veteranlara dövlət tərəfindən xüsusi qayğı göstərildiyi qeyd edilmişdir.

Azərbaycan nümayəndələri eləcə də, Azərbaycanın 20 faizdən çox ərazisini işğal altında saxlayan Ermənistan tərəfinin təcavüzkarlıq siyasətini bu gün də davam etdirdiyini çatdırmış, bu məsələyə bütün veteran təşkilatları və veteranların münasibət bildirməsinin vacibliyini vurğulamışlar.

20 aprel 2017-ci ildə Respublika Veteranlar Təşkilatının nümayəndələri Ukraynalı həmkarları ilə görüş keçirmişlər. Bu görüşdə veteran təşkilatları arasındakı qarşılıqlı əlaqələrdən, bu əlaqələrin gələcəkdə daha da möhkəmləndirilməsi zərurətindən danışılmışdır.

Görüşün sonunda Respublika Veteranlar Təşkilatı Rəyasət Heyəti adından Ukrayna Veteranlar Təşkilatının sədri Viktor Şmakova "Veteran həmrəyliyi", "İnter" telekanalının Multimedia qrupunun rəhbəri Anna Bezlyudnyaya "Həzi Aslanov", baş redaktoru Anton Nikitinə "Əliağa Şıxlinski" yubiley medalları təqdim edilmişdir.

Tədbir iştirakçıları "Naməlum Əsgər" və "Ana Vətən" abidələrini ziyarət etmiş, hər iki abidənin önünə gül dəstələri qoymuşlar.

Tədbirlərdə digər ölkələrin veteran təşkilatlarının təmsilçiləri də çıxış etmiş və "İnter" telekanalına müsahibələr vermişlər.

AZƏRBAYCAN VETERANI

# Respublika Veteranlar Təşkilatında veteranlarla görüş keçirilmişdir



Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev, sədr müavini Cəlil Xəlilov və Təşkilatın mərkəzi aparatının əməkdaşlarının iştirakı ilə II Dünya müharibəsi və əmək veteranları ilə görüş keçirilmişdir.

Görüşdə bir sıra məsələlər ətrafında söhbətlər aparılmış, veteranları maraqlandıran suallar cavablandırılmışdır. Veteranların problemləri dinlənilmiş, həll edilməsi üçün general-mayor Dadaş Rzayev tərəfindən əməkdaşlara lazımi göstərişlər verilmişdir. Həmçinin görüşdə Qələbənin 72-ci ildönümü ərəfəsində Respublika Veteranlar Təşkilatının ölkənin bir sıra nazirlikləri ilə keçirdikləri birgə tədbirlər planı müzakirə etmişlər.

Tədbirdə Təşkilatın sədr müavini Cəlil Xəlilov çıxış edərək veteranların ruh yüksəkliyi ilə belə bir tədbirlərdə iştirak etmələrini, eləcə də, ölkənin ictimai həyatında fəaliyyətlərinin təqdirəlayiq olduğunu, xüsusən gənclərdə vətənpərvərlik tərbiyyəsinin yüksəldilməsində, onlara vətən sevgisinin aşılanmasında veteranlar üzərlərinə düşən məsuliyyəti dərindən dərk etdiklərini və layiqli formada yerinə yetirdiklərini qeyd etdi.

Prezident İlham Əliyev başda olmaqla bütün dövlət strukturlarının rəhbərliyi və əməkdaşları veteranlara hər cür diqqət və qayğını göstərirlər. MDB ölkələri içərisində



Azərbaycanda II Dünya müharibəsi veteranlarına xüsusi diqqət yetirilir, onların sosial-maddi təminatı yaxşılaşdırılır.

9 may Qələbə günü ərəfəsində təşkil edilmiş görüş veteranların Qələbə sevincini daha da artırdı. Veteranlar da göstərilən diqqətə görə ölkə rəhbərliyinə və Respublika Veteranlar Təşkilatının kollektivinə minnətdarlıqlarını bildirdirdilər.

# "Aprel döyüşləri" dərsləri

Nəsimi Rayon İcra Hakimiyyəti aprel döyüşlərinin ildönümü ilə əlaqədar silsilə tədbirləri davam etdirir. Növbəti tədbir kimi Nəsimi rayon məktəblilərinin iştirakı ilə "Aprel döyüşləri" dərslərinə start verilib.




Tədbir Azərbaycan torpaqlarının müdafiəsi zamanı şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanılıb.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov aprel döyüşləri zamanı Azərbaycan Ordusunun cəsarətindən, qəhrəmanlığından danışıb. Bildirib ki, 2016-cı ilin aprel döyüşləri zamanı Milli Ordumuzun hərbçiləri şəhidlik zirvəsinə yüksələrək öz canları və qanları hesabına hər birimizə çoxdan gözlədiyimiz qələbənin yollarını göstəriblər. Aprel döyüşlərində qazanılmış qələbədə gənclərin yüksək vətənpərvərlik nümayiş etdirməsi, yüksək əhval-ruhiyə sərgiləməsi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uğurlu gənclər siyasətinin bariz nümunəsidir.



Döyüşlərin iştirakçıları olmuş polkovnik-leytenant Eldəniz Sadıqov və polkovnik-leytenant Vüqar Mirzəyev bildiriblər ki, dördgünlük müharibə zamanı Azərbaycan Milli Ordusu tərəfindən qısa müddətdə strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələr Ermənistan Silahlı Qüvvələrindən tam azad edilib.

Aprel döyüşlərinin iştirakçısı olan kapitan Ramal İbrahimov aprel döyüşləri zamanı Füzuli rayonu istiqamətində yerləşən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinin azad edilməsindən, burada Azərbaycan bayrağının dalğalandırılmasından danışıb.

Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev bildirib ki, aprel ayında ordumuz erməni silahlı təxribatının qarşısını alaraq düşmənə sarsıdıcı zərbələr vurub və işğal edilmiş torpaqların bir hissəsini azad edib. Həmin günlər Milli Ordumuzun əsgərləri doğma Vətən torpaqlarının hər bir qarışının bizlər üçün nə gedər əziz olduğunu öz canları və qanları hesabına bir daha sübut etdilər.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov bildirib ki, Azərbaycan əsgərləri işğal altındakı minlərlə hektar torpağımızı uğurlu əks-hücum əməliyyatı nəticəsində azad ediblər. Bu, Azərbaycanın böyük hərbi qələbəsidir. Azərbaycan dövləti bir daha bütün dünyaya nümayiş etdirdi ki, işğalla heç zaman barışmayacaq. Azərbaycan Ordusu lazım olan əməliyyatı uğurla həyata keçirməyə qadirdir. Çünki Azərbaycan Ordusu bu gün qüdrətli, müasir silah və texnika ilə tam təmin olunmuş ordudur.

Aprel döyüşləri dərsində iştirak edən Nəsimi rayon məktəbliləri bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə üçrəngli bayrağımız doğma Qarabağımızın hər bir guşəsində dalğalanacaq.

# Azərbaycan qəhrəmanları Ərzurumda belə tanıdıldı

Azərbaycan türk dünyasının ayrılmaz bir parçasıdır. Qarabağ nəinki Azərbaycanın, Türkiyənin də qanayan yarasıdır.

Türkiyədə, Ərzurumun Oltu bölgəsində "Qəhrəmanlar can verir, yurdu yaşatmaq üçün" adlı musiqili - bədii gecə və "Azərbaycan - şanlı Vətən" mövzusunda mühazirə təşkil olunmuşdur. Tədbirin təşəbbüskarı və təşkilatçısı Yavuz Sultan Səlim Paşa və Anadolu Texniki litseyinin tarix



müəllimi Yavuz Kutlu öz şagirdlərinə vətənpərvərlik, türk kimliyi, Türkiyə - Azərbaycan qardaşlığının təməlləri və inkişafı haqqında geniş məlumat vermişdir.

Şagirdlər aprel döyüşlərində şücaət göstərmiş kəşfiyyat qrupunun komandiri qazi Kamil Musəvi və erməni zabitinə layiqli cavab vermiş daha bir zabitimiz Ramil Səfərovun qəhrəmanlıq yolunu əks etdirən stendlə tanış olmuş və Qarabağı vəsf edən şeirlər səsləndirmişlər. "İgidlərin sayı yoxdur bu eldə" deyilir məşhur mahnın sözlərində... Dünyaya gələn hər oğul gələcəyin əsgəridir, Vətən keşiyində olan, Vətəni qoruyan əsgər...

Tanrı əsgərlərimizi qorusun.

*KƏMALƏ UMUDOVA*

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları ilə veteranların görüşü



Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimovun bir qrup İkinci Dünya müharibəsi veteranları ilə görüşü keçirilib.

Tədbirdə çıxış edən təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 72-ci ildönümü ərəfəsində belə görüşlərin əhəmiyyətini yüksək qiymətləndirib.

Qeyd edilib ki, Respublika Veteranlar Təşkilatının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə əlaqələrinin çoxillik tarixi və xüsusi əhəmiyyəti vardır. Hələ keçmiş SSRİ dövründə təməli qoyulmuş bu qarşılıqlı fəaliyyət hər iki tərəf üçün mühüm əhəmiyyət kəsb edir. İkinci Dünya müharibəsi iştirakçıları ilə bağlı fəaliyyət, eləcə də gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmaları, hərbi xidmətə hazırlanmaları istiqamətlərində müvafiq tədbirlərin keçirilməsində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti daim Təşkilatın fəaliyyətinə dəstək olub. Bu görüşün keçirilməsi də qeyd olunanlara əyani sübutdur.

Alman faşizmi üzərində qələbənin 72-ci ildönümü münasibətilə veteranları təbrik edən Arzu Rəhimov onlara möhkəm cansağlığı, gənc nəslin azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsində uğurlar arzulayıb. Respublika Veteranlar Təşkilatının gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmaları, hərbi xidmətə hazırlanmaları istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirən A.Rəhimov bu işin torpaqlarımızın 20 faizinin Ermənistan hərbi birləşmələrinin işğalı altında olduğu vaxtda xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. Hazırda Azərbaycanda İkinci Dünya müharibəsi veteranlarına dövlət tərəfindən, xüsusilə Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük diqqət və qayğı göstərildiyini qeyd edən Xidmət rəisi bugünkü görüşün məqsədinin də məhz bu olduğunu bildirib.

A.Rəhimov İkinci Dünya müharibəsində Azərbaycanın cəbhəyə verdiyi əvəzsiz töhfələrdən və Azərbaycan Ordusunun aprel döyüşlərində göstərdiyi şücaətlərdən danışıb.

Sonra İkinci Dünya müharibəsi veteranlarına Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hədiyyələrini təqdim edərək onlarla hər görüşün əlamətdar hadisə kimi yadda qaldığını vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov, İkinci Dünya müharibəsi veteranı Fatma Səttarova Azərbaycan dövlətinin veteranlara göstərdiyi qayğıya və general-leytenant Arzu Rəhimovun onlarla görüşə gəldiyinə görə veteranlar adından təşəkkürlərini çatdırıb.

# *Veteranlara dövlət qayğısı*

**M**əlumdur ki, Ulu öndərimiz Heydər Əliyev Respublikamızın veteranlarına həmişə böyük qayğı göstərmişdir. Hal-hazırda Ulu öndərimizin layiqli siyasi varisi ölkəmizin Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yüksək tərəqqi göstəricilərinə nail olmuşdur. O, bu istiqamətdəki xətti müvəffəqiyyətlə həyata keçirir.

Elə bu yaxın bir neçə il ərzində və 1941-1945-ci il Böyük Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində hörmətli Prezidentimizin çoxsaylı fərman və sərəncamları olub.

Onların ancaq bir neçəsini oxucuların nəzərinə çatdırıram:

02 iyul 2012-ci il tarixində 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilərək onun aylıq məbləği 55 manat müəyyən edilmişdir.

23 aprel 2013-cü il tarixdə Respublika Prezidentinin fərmanı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 68-ci ildönümü ilə əlaqədar Böyük Vətən müharibəsi iştirakçılarına 700,0 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçuların dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafei üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsinin iştirakçılarına 300,0 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

30 aprel 2014-cü il tarixli sərəncamı ilə Qələbənin 69-cu ildönümü ilə əlaqədar 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 700,0 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirilmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsinin iştirakçılarına 300,0 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

17 mart 2014-cü il tarixdə Prezidentin fərmanı ilə "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün aylıq məbləği artırılaraq 1-ci qrup müharibə əlillərinə 150 mana, 2-ci qrup müharibə əlillərinə 130 manat, 3-cü qrup əlillərinə 100 manat müəyyən edilmişdi.

Həmçinin "Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilərək onun aylıq məbləği 60 manat müəyyən edildi.

11 avqust 2014-cü il tarixli fərmanı ilə Əfqanıstanda Sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmuş elan edilən hərbi qulluqçuların ailələrinin (valideynləri, dul arvadları) üçün ayda 200 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir.

16 yanvar 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezident təqaüdünün aylıq məbləği 2016-cı il fevralın 1-dən 10% artırılıb.

19 yanvar 2016-cı ildə "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əllilərinə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanlna əsasən "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2016-cı il fevralın 1-dən 10% artırılaraq

1.1. I-ci qrup əlillərə 165 manat,

1.2. II-ci qrup əlillərə 143 manat,

1.3. III-cü qrup əlillərə 110 manat təqaüd təyin edildi.

25 yanvar 2016-cı il tarixdə Azərbaycan Respublikası Presidentinin sərəncamı ilə 1941-1945-ci iilər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin mühasirəsində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 10% artırılmışdı.

Bundan əlavə, qeyd edilən şəxslərin, eləcə də şəhid ailələrinin mənzil və fərdi evlərlə, müharibə əlillərinin isə minik avtomobilləri ilə təmin edilməsi üzrə mühüm sosial proqramlar da icra edilir. 2016-cı ildə 103 nəfər müharibə əlilinə, son 20 il ərzində isə 3476 nəfərə pulsuz avtomobil, o cümlədən, müharibə əlilləri və şəhid ailələrinə son 20 il ərzində 3646 şəxsə mənzil və fərdi ev verilib. 2016-cı ildə 445 nəfər müharibə əlili sanatoriya-kurort putyovkası ilə təmin edilib, 271 nəfər Qarabağ müharibəsi əlilinin sosial-məişət problemlərinin həllinə kömək üçün 63 min manat, aprel döyüşləri zamanı əlil olmuş şəxslərə cari ilin yanvar ayında 10 min manat məbləğində birdəfəlik yardım edilib. Son üç ildə və cari ilin ilk rübündə Respublika Protez Ortopedik Bərpa Mərkəzi tərəfindən 1460 nəfər müharibə əlilinə 23935 protez ortopedik məmulat və reabilitasiya vasitələri, o cümlədən 144 ədəd əlil arabası verilib.

Biz veteranlara göstərilən bu qayğıya görə Respublikamızın Prezidenti İlham Əliyevə, Birinci Vitse-prezidentimiz Mehriban Əliyevaya öz xüsusi minnətdarlığımızı bildiririk.



ƏLİŞ ƏLİYEV

AZƏRBAYCAN VETERANI

# Sovet İttifaqı Qəhrəmanlarımız



Abbas Şahbaz oğlu Quliyev
Adil Hüseyn oğlu Quliyev
Ağaşirin Ağaməmməd oğlu Cəfərov
Aslan Vəzirov Aslan Fərhad oğlu Vəzirov
Bahəddin Şahvələd oğlu Mirzəyev
Bəkir Dursun oğlu Mustafayev
Cəmil Məhəmməd oğlu Əhmədov
Əlif Turxan oğlu Piriyev
Əmi Ağa oğlu Məmmədov
Əvəz Həşim oğlu Verdiyev
Fariz Məcid oğlu Səfərov
Gəray Lətif oğlu Əsədov
Həbibulla Eynulla oğlu Hüseynov
Həzi Əhəd oğlu Aslanov
İdris Həsən oğlu Süleymanov
İsmayıl Xəlil oğlu Bayramov
İsrafil Məhərrəm oğlu Məmmədov
Mehdi Hənifə oğlu Hüseynzadə
Mehdi Nadir oğlu Quliyev
Məhərrəm Əkbər oğlu Dadaşov
Məlik Məlik oğlu Məhərrəmov
Məmiş Şahbaz oğlu Abdullayev
Məmməd Əli oğlu Məhərrəmov
Məmməd Cəbrayıl oğlu Məmmədov
Mərdan Məmməd oğlu Musayev
Məstan Aslan oğlu Əliyev
Mikayıl Məhəmməd oğlu Əkbərov
Mirzə Ağamurad oğlu Cəbiyev
Mirzə Dövlət oğlu Vəliyev
Müseyib Abdulla oğlu Allahverdiyev
Müseyib Bağır oğlu Bağırov
Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev
Qafur Nəsir oğlu Məmmədov
Qəzənfər Qulam oğlu Əkbərov
Səlahəddin Həsən oğlu Kazımov
Səməd Həmid oğlu Abdullayev
Şəmsulla Feyzulla oğlu Əliyev
Şirin Ağabala oğlu Şükürov
Xəlil Məmməd oğlu Məmmədov
Xıdır Həsən oğlu Mustafayev
Yusif Mədət oğlu Sadıxov
Ziya Musa oğlu Bünyadov

# Milli diviziyalarımız

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar SSRİ Silahlı Qüvvələrinin Ali Baş komandanı Stalinin 1941-ci ilin 18 oktyabr tarixli əmrinə əsasən azərbaycanlılardan ibarət 77-ci, dağatıcı, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyalar yaradıldı. Həmin diviziyalar Zaqafqaziya hərbi dairəsində yerləşən 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər. 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad olunmasında fərqlənmiş, 416-cı diviziya isə Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçmiş, Almaniya paytaxtının süquta yetirilməsində xüsusi fəallıq göstərmişdir.

77-ci dağatıcı diviziya müharibəyə 1941-ci ilin dekabrında Kerç-Feodosiya desant əməliyyatı ilə başladı. Diviziya Kerç, Taman, Novorossiysk, Mozdok, Mineralnı Vodı şəhərləri uğrunda gedən döyüşlərdə fərqlənmiş, Simferopolun azad edilməsində göstərdiyi qəhrəmanlığa görə Suvorov ordeni ilə təltif edilmişdi. Bu şərəfə 77-ci diviziyaya "Simferopol diviziyası" fəxri adı verildi. Bütövlükdə, Krımın azad edilməsində xüsusi xidmətlərinə görə diviziyanın 3140 döyüşçüsü Vətənin yüksək orden və medallarına layiq görüldü.

396-cı atıcı diviziya 1941-ci ilin avqustunda İranda 44-cü ordunun tərkibində olmuşdur. Həmin ilin sonunda diviziya Respublikanın Quba bölgəsinə gətirilmiş və Şimali Qafqaza göndərilmək üçün hazırlanırdı. Diviziyanın ilk komandiri Q.Korçakov, komandir müavini polkovnik Əsədullayev, komissarı polkovnik Xavər Vəliyev olmuşdur. Diviziyanın şəxsi heyətinin əksəriyyəti azərbaycanlılardan ibarət idi. 1941-ci ilin son günlərində diviziya Krım yarımadasına desant yolu ilə göndərildi və 51-ci Ordunun tərkibinə daxil edildi. 1942-ci ilin may döyüşləri ərəfəsində Krımda 44-cü, 47-ci və 51-ci Sovet Orduları yerləşdirilmişdi. Mayın 7-də faşist ordusunun geniş miqyaslı hücumları nəticəsində 44-cü Sovet Ordusu hissələri böyük itki ilə geri çəkilməyə məcbur oldular. Bu döyüşdə 396-cı diviziya böyük itki verdi. 396-cı diviziyanın şəxsi heyəti Azərbaycana göndərilərək, yeni tərtib edilən 223-cü diviziyanın tərkibinə qatıldı.

223-cü milli atıcı diviziyanın döyüş yolu 1942-ci ilin yayında Şimali Qafqazdan başlayaraq, Ukrayna, Moldova, Bolqarıstan, Yuqoslaviya, Macarıstandan keçmiş, Avstriyanın paytaxtı Vyanaya qədər uzanmışdı. Diviziya 1945-ci il mayın 9-da Çexoslovakiyaya daxil olmuş və mayın 12-də Amerika ordusunun hərbi hissələri ilə görüşmüşdü. Diviziyanın döyüşçülərindən 3483 nəfəri orden və medallarla təltif edilmişdi.

402-ci atıcı diviziya müharibəyə Şimali Qafqazda qatılmış, Qroznı - Mozdok istiqamətində ağır döyüşlərdə iştirak etmiş və bu savaşda onun 833-cü alayının komandiri mayor Akim Abbasov və 840-cı alayın döyüşçüləri qəhrəmanlıq nümunələri göstərmişdilər.

416-cı milli atıcı diviziyanın ümumi heyətinin 90 faizi, komanda heyətinin 92 faizi azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda Mozdok istiqamətində döyüşlərə başlamışdı. Taqanroq şəhərinin azad edilməsində xüsusi roluna görə ona "Taqanroq diviziyası" adı verildi. 1943-cü ilin iyulundan sonra diviziyaya general-mayor Heybət Heybətov komandirlik etmişdir. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi.

Diviziya Qafqazdan Berlinə kimi müzəffər döyüş yolu keçmiş, düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 əsir götürmüş, faşistlərə məxsus çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdi. Diviziyanın 14396 nəfər əsgər və zabiti SSRİ-nin ən yüksək orden və medalları ilə təltif edilmiş, bir çoxu isə xarici ölkələrin orden və medallarını almışdı.




416-cı diviziyanın 1945-ci ildəki döyüş fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Diviziya fevral ayının 3-də Oder çayını keçərək Kyustrin şəhərinin alınmasında böyük şücaət göstərmişdir. Almaniya Reyxinin paytaxtı üzərinə həlledici hücuma başlayan diviziyanın 1373-cü alayı düşmənin müdafiə xəttini birinci yararaq, aprelin 21-də şəhərin ərazisinə daxil oldu. May ayının 3-də marşal Georgi Jukov 416-cı diviziyanın Berlində keçirdiyi döyüş əməliyyatlarının məharətlə hazırlandığını qeyd etmiş, onun xidmətlərinə yüksək qiymət vermişdi.

Azərbaycanın milli diviziyaları sırasında 416-cı Taqanroq diviziyası İkinci Dünya müharibəsi cəbhələrində 30 ay fasiləsiz döyüşlər apararaq Praqa şəhərinə qədər ümumilikdə 5000 kilometr yol qət etmiş, 6 Avropa ölkəsindən - Rumıniyadan, Bolqarıstandan, Yuqoslaviyadan, Macarıstandan, Avstriyadan, Çexoslovakiyadan və 50-dən çox irili-xırdalı çaydan keçərək düşmənin 28 hərbi təyyarəsini, 113 tankını və zirehli maşınını, 549 səhra topunu, 311 minomyotunu, 1152 pulemyotunu, 200 avtomaşınını, 219 parovozunu, 7400 vaqonunu, 70 ambarını məhv etmiş, küllü miqdarda qənimət ələ keçirmişdi.

# Partizan hərəkatı

Böyük Vətən müharibəsi zamanı qeyri-bərabər döyüşlərdə əsir düşən həmvətənlərimiz faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen, Ravensburyuk və başqa ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq hünərlər göstərmişdilər. Azərbaycanlı döyüşçülər partizan dəstələri tərkibində Avropanın bir neçə ölkəsində də faşistlərə qarşı müqavimət hərəkatında fəal iştirak etmişlər.

1942-1944-cü illərdə isə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer-Ştranse, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Brno və Bistritsa rayonlarında gizli antifaşist təşkilatları yarada bilmişdilər. Qeyd etmək lazımdır ki, təkcə Fransanın cənubunda fəaliyyət göstərən partizanlar arasında 1000 nəfərdən çox, Yuqoslaviyadakı partizanlardan ibarət zərbə briqadalarının tərkibində isə 600 nəfərdən çox azərbaycanlı faşistlərə qarşı ölüm-dirim mübarizəsi aparmışdı. 1943-cü ilin yayında Krımda fəaliyyət göstərən partizan dəstələri arasında azərbaycanlılardan ibarət dəstə də vardı. Sonrakı illərdə Ukrayna, Belarusiya torpaqlarında və Baltikyanı respublikalarda da azərbaycanlı partizanlar düşmənə qarşı mübarizədə fəal iştirak etmişlər. Ukrayna torpaqlarının azadlığı uğrunda gedən partizan hərəkatında faşistlərə qarşı 5000 nəfər, Belarusiya torpaqlarında isə 1000 nəfərədək azərbaycanlı vuruşmuşdu. Mehdi Hüseynzadə Yuqoslaviya Xalq Azadlıq Ordusunun 11-ci korpusu qərargahı yanında Haribaldi adına xüsusi kəşfiyyat - təxribat qrupuna rəhbərlik etmiş, fövqəladə qəhrəmanlıqları ilə ad-san qazanmışdı.

Fransanın Rodez şəhərindəki əsir düşərgəsində xeyli azərbaycanlı vardı. Onların çoxu gizli antifaşist təşkilatının üzvü idi. Gizli təşkilatın üzvü olan həkim Əmirov 29 nəfər əsirlə birlikdə meşəyə qaçıb partizanlara qoşulmuşdu. 1944-cü il avqustun 17-də Rodez şəhəri fransız və azərbaycanlı partizanlar tərəfindən faşistlərdən azad edilmişdi. Əslən Şəkidən olan Əhmədiyyə Cəbrayılov da Fransanın partizan hərəkatında fəal iştirak edərək bu ölkənin ali mükafatına layiq görülmüşdü.

# Arxa cəbhə

Partizan hərəkatında iştirak edən soydaşlarımız da saysız-hesabsız qəhrəmanlıq nümunələri göstərmişlər. İkinci dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının qəhrəmanlıq və şücaəti heç vaxt yaddaşlardan silinmir, gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir.

Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də böyük şücaət və əzmkarlıq göstərmişdir. İkinci dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti həlledici rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşmüşdür. Azərbaycan Berlinin alınması zamanı 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynamışdır. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərmiş, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilmişdir. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər etmişdir.

# Qocaman Veteranlar



Sərhədləri qoruyub,
Səngərdə keşik çəkib,
Səmalarda iz qoyub,
Coşqun dənizdən keçib.

Vətənin hər qarışın
Sevib canı, qanı tək
Son anadək döyüşüb
Qocaman Veteranlar

Gələcək nəsillərə
Örnəkdir Veteranlar!
Cəsur, igid, şərəfli
Qocaman Veteranlar!

Qəhrəmanlıq tarixin
Yaradan Veteranlar
Sizinlə qürur duyur
Anamız Azərbaycan

Oddan-alovdan keçib,
Şərəfli bir and içib,
Xoş müjdə, qələbəni
Xalqımıza yetirib.

Millətlərin içində
Ucadan-uca xalqım
Sənə şöhrət gətirib
Qocaman Veteranlar!

ZƏMİNƏ XINALI

# ƏLƏKBƏR CABBAROV

1 sentyabr 1939-cu ildə başlamış, 2 sentyabr 1945-ci ildə bitmiş İkinci Dünya müharibəsində 10 milyonlarla insanın həyatına son qoyaraq, bəşər tarixinin ən qanlı müharibəsi kimi tarixdə öz yerini almışdır. 22 iyun 1941-ci ildə Alman faşistləri SSRİ-yə qarşı müharibə elan etməsi ilə birlikdə Böyük Vətən Müharibəsi başladı. SSRİ-nin hər yerindən, o cümlədən Azərbaycandan da həmin müharibədə vuruşmağa gedənlərin sayı heç də az olmadı. Milli Diviziyaların tərkibində Naxçıvan MR (o vaxtkı Naxçıvan MSSR) Sədərək rayonunun igidləri də cəbhənin müxtəlif istiqamətlərində vuruşmuşdur. Onlardan Şükür Şahverdiyev, Həmo Abdullayev, Cabbar Nəbiyev, Səməd Cəlilov, Qasım Qasımov, Ələkbər Cabbarov, Cəlil Qasımov, Paşa Quliyev, Əziz Məmmədov, Zeynal Əliyev, Adil Bağırov, Salman Qasımov və başqaları müharibə zamanı igidliklərinə görə yüksək orden və medallarla təltif olunmuşdurlar. Ümumilikdə isə Sədərək rayonundan 462 nəfər igidimiz müharibəyə getmişdir ki, onlardan 263 nəfəri həlak olmuş, 199 nəfəri isə öz ailələrinin yanına qayıda bilmişlərdir. Hal-hazırda isə 199 nəfərdən cəmi 1 nəfər - 416-cı milli atıcı diviziya olan Taqanroq diviziyasının tərkibində, əsasən də Ukraynanın Kolonko şəhəri istiqamətlərində gedən döyüşlərdə vuruşmuş Cabbarov Ələkbər Məmmədəli oğlu həyatdadır. Rayonun sayılıb seçilən ağsaqqallarından olan Ələkbər Cabbarov ilə o dövr haqqında danışdıqda yaşının çox olmasına baxmayaraq "...dünən kimi yadımdadır..."- deyir. Səfərbərlik elan olunduqda Ələkbər müəllim



və onunla birlikdə xeyli sayda igidi Ağstafa ərazisinə aparmış və oradan da müxtəlif cəbhələrə göndərilmişlər.

"1943-cü ilin 15 fevralında bizi Rostov ərazisinə göndərdilər və 17 avqustda Taqanroq düşməndən azad etdik və bizim 416-cı milli atıcı diviziyamıza fəxri Taqanroq Diviziyası adı verildi. Nikolayev şəhəri uğrunda amansız vuruşmadan sonra orada da qalib gəldik. 1944-cü ilin yanvarından Ukraynada, avqustunda isə Moldovadakı Yassa-Kişniyov döyüş əməliyyatında uğurla iştirak edib qələbə çaldıq. Müharibəni qələbə ilə başa vurduqdan sonra 1947-ci ilə qədər Moskvadakı Hərbi Akademiyada müəllim kimi çalışdım. Sonra isə neçə illər uzaq olduğum ata-baba yurdum olan Sədərəyimə, doğmalarımın yanına döndüm."

Ələkbər Cabbarovla söhbət zamanı ən təsirli sözü isə bu oldu: "Biz o vaxtlar SSRİ üçün özümüzü tankların altına atırdıq, lakin SSRİ 1990-cı il 20 yanvar tarixində bizim üstümüzə tanklarla hücum etdi."

CƏLİL QASIMBƏYLİ

## Quliyev Məmməd Salman oğlu



Quliyev Məmməd Salman oğlu 1925-ci ildə Cəyərli kəndində anadan olmuşdur. 1942-ci ildə müharibəyə getmiş, II Ukrayna, I Belorusiya cəbhələrində döyüşmüş, Latviya və Litvanın azad edilməsində iştirak etmişdir. 1943-cü ilin oktyabr ayında Dnepr çayını keçərək komandanlığın əmrini yerinə yetirərkən ayağından ağır yaralanmış, yaralı halda beş gün döyüş bölgəsində qalmış, hospitala göndərilməsi mümkün olmadığından yaralı halda da döyüşlərə davam etmişdir.

Ukraynanın Aleksandriya şəhəri uğrunda gedən döyüşlərdə çiynindən yaralanmış, hospitalda müalicə aldıqdan sonra cəsur əsgər Belarusiyanın Vitebsk şəhərinin azad edilməsində iştirak etmişdir. Daha sonra Dvina çayının üzərindəki körpünün qorunmasında fəal iştirak etmiş, faşizm üzərində qələbəni Latviyada qarşılamışdır. 1945-ci ilin oktyabr ayında vətənə qayıtmışdır. BVM-nin I və II dərəcəli ordeni, "Qırmızı Ulduz" ordeni və 15-ə qədər digər orden, medallarla təltif olunmuşdur. Eyni zamanda Məmməd Quliyev Qarabağ müharibəsi veteranıdır. Qarabağ uğrunda gedən döyüşlərdə oğulları Fəxrəddin və Aydın Quliyevlər şəhid olmuşlar. Şəhid atası məğrur ol! Vətən sağ olsun.

TELMAN HƏTƏMOV

## Ələkbərov Məmmədəli Əli oğlu

Ələkbərov Məmmədəli Əli oğlu 1926-cı ildə Qərbi Azərbaycanda anadan olmuşdur. 1944-cü ildə hərbi xidmətə çağırılmış, 124- cü alayda, daha sonra tank diviziyasında döyüş yolu keçmişdir. 1945-ci ildə Tori şəhərində gedən döyüşlərdə yaralanmış, hospitalda müalicə almış, yenidən cəbhəyə qayıtmış, 1947-ci ildə ordudan tərxis olunmuşdur. 1953-cü ildə ali təhsil aldıqdan sonra məktəbdə müəllim, məktəb direktoru və digər vəzifələrdə işləmişdir. Müharibə əmək veteranıdır. "Əmək veteranı" medalı, digər medallar və fəxri fərmanlarla təltif olunmuşdur.



## Hüseynov Cənnət Əli oğlu



Hüseynov Cənnət Əli oğlu 1925-ci ildə Qərbi Azərbaycanın Amasiya rayonunda anadan olmuşdur. 1944-cü ilin əvvəllərindən II Dünya müharibəsində ön cəbhədə gedən ağır döyüşlərə qatılmış, Berlinə qədər getmiş, Reyxstaqın alınmasında iştirak etmişdir. Veteran bu günə qədər döyüş yoldaşları ilə birlikdə Berlində qeyd etdikləri Qələbəni xatırlayır: "Biz çox çətin günlər keçmişdik, amma Berlində qələbə bayrağını sancmaq bizim üçün əsl sevinc idi. Bəşəriyyətin unutmayacağı tarixi günün canlı şahidləri idik".

Cənnət Hüseynov 1950-ci ildə ordudan tərxis olunmuşdur.

Xidmətini başa vurduqdan sonra doğma ata-baba yurdu olan Amasiya rayonuna qayıtmış, sovxozda müxtəlif vəzifələrdə işləmişdir. Hazırda Bakı şəhərində yaşayır.

Ailəlidir. Beş oğlu, iki qızı var. Əmək və müharibə veteranıdır.

ELDAR RÜSTƏMOV

# Atamı xatırlarkən...

Atam, Hüseynbala Ağaqulu oğlu Əliyev əlamətdar - 9 may 1905-ci il tarixində Bakı şəhərində anadan olmuşdur. O, 1941-1945-ci illərdə hərbi həkim kimi müharibə iştirakçısı olmuşdur. 1943-cü ildə Polşada yaralanmış, amma döyüş yoldaşlarını yarı yolda buraxmayaraq yenidən döyüşlərə qayıtmışdır. Atam göstərdiyi şücaət və qəhrəmanlığına görə "Qafqazın müdafiəsinə", Berlinin alınmasına və s. görə müxtəlif orden və medallarla təltif olunmuşdur.

Ailəmiz bir yerə toplaşanda o bizə müharibə xatirələrindən, müharibənin çətinliklərindən əziyyətlərindən gərgin döyüşlərdən söhbət açırdı. Onun cəbhə dostları da bizə tez-tez qonaq gəlirdi, həlak olmuş cəbhə yoldaşlarını və onlarla olan xatirələri yada salıb kövrəlirdilər.

Müharibədən sonra Hüseynbala Əliyev ailə qurur və ömrünün sonlarınadək həkim işləyir. Mən bütün Böyük Vətən müharibəsi veteranlarını Qələbənin 72 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bizim gənc nəsil həmişə qəhrəmanların xatirəsini uca tutsun və vətəni canlarından çox sevsinlər.

ƏLİYEVA ELMİRA



# Məmmədov Əmirbala



Məmmədov Əmirbala Əmirəhməd oğlu 1925-ci il fevral ayının 2-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Biləcəri qəsəbəsindəki 299 saylı orta məktəbdə almışdır. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. Həmin zaman müharibə başlamışdır. Əmirbala Məmmədov 1942-ci ilin oktyabr ayında Bakı Hərbi Piyada qoşunları məktəbinə oxumağa, 3 aydan sonra isə Şimali Qafqaza Mozdok ətrafında gedən ağır döyüşlərə göndərilir.

Xidmət dövründə 766 saylı diviziyada qulluq edir, pulemyotçu olur. 1943-cü ilin yanvar ayında Mozdok ətrafında gedən döyüşlərdə sol çənəsindən yaralanır, hospital uzaq olduğundan 40 gün tibb məntəqəsində qalır, çox əziyyətli günlər çəkir, dişləri tökülür, danışmağı çətinləşir. Amma bu ona mane ola bilmir, o sağaldıqdan sonra yenidən döyüşlərə qayıdır. 1945-ci ildə müharibə qurtarsa da, xidmətini davam etdirir, 8 il xidmətdən sonra 1950-ci il fevralın 22-də ordudan tərxis olunur. Müharibəni qalib tərəfdə bitirmək onu çox sevindirir və bütün ağrı-acılarını unutdurur. Məmmədov Əmirbala Stalin medalı, Lenin medalı, Qələbənin 35, 40, 45, 50, 55, 60, 65, 70 illik yubiley medalları və bir çox ordenlərlə təltif olunmuşdur.

# Reyxstaq divarlarına öz adını həkk edən qəhrəman

Qasımov İsmayıl Qasım oğlu 1923-cü il iyunun 10-da Gəncə şəhərində anadan olub. 1941 -ci ilin iyununda, hələ 10-cu sinifdə oxuyarkən 30 nəfərlik könüllülər dəstəsinin tərkibində hərb sənətinin sirlərini öyrənmək üçün əvvəlcə Gürcüstanın Telavi şəhərindəki hərbi məktəbə göndərilib. Sonra zabit rütbəsində 369-cu atıcı alayının 1169-cu tank əleyhinə bölüyünə taqım komandiri, bir müddət sonra Azərbaycan atıcılıq diviziyasında bölük komandirinin müavini təyin olunub. Bu diviziyanın tərkibində İsmayıl Qasımovun döyüş yolu Mozdokdan başlayaraq, Azov, Şimali Qafqaz, Kuban, Melitopol, Zaparojye, Stavropol və Rostovun azad olunması uğrunda gedən şiddətli döyüşlərədək davam edib.

Melitopolda yaralandıqdan və hospitalda müalicə olunduqdan sonra yenidən cəbhəyə yollanıb. O, 152-ci atıcılıq diviziyasının bölük komandiri vəzifəsində Kursk və Babruysk əməliyyatlarında, Varşavanın azad olunmasında, Şərqi Prussiyada olan faşist birləşmələrinin darmadağın edilməsində, Keniqsberq şəhəri uğrunda gedən ağır döyüşlərdə fəal iştirak edib.



İsmayıl Qasımova 1-ci Ukrayna cəbhəsinin tərkibində Berlinin alınmasında iştirak etmək nəsib olub. Həmçinin İ.Qasımov Praqa və Drezden şəhərlərinin faşist işğalından azad olunmasında fərqlənib.

Müharibədən sonrakı illərdə 216-cı Azərbaycan diviziyasının (əvvəllər 416-cı Taqanroq diviziyası adlanırdı) kəşfiyyat taborunun bölük komandiri, sonra qərargah rəisi vəzifəsində xidmət edib. 1956-cı ilin iyun ayında 216-cı diviziya ləğv edildiyindən ehtiyata buraxılıb və həmin ilin dekabr ayında DİO-da xidmətə göndərilib. Əvvəlcə Keşlə, sonralar Oktyabr RDİŞ-nin rəis müavini, Bakı Şəhər DİI-də İctimai təhlükəsizlik şöbəsinin rəisi, Qərargah rəisi vəzifələrində çalışıb. 1981-ci ildə istefaya çıxıb. Ordun da və DİO-da xidmət etdiyi illər ərzində 1-ci və 2-ci dərəcəli "Böyük Vətən Müharibəsi" orden, medallarla təltif edilib.

CAMAL QƏHRƏMANOV

# Umarov Əvəz İsbəndiyar oğlu

Umarov Əvəz İsbəndiyar oğlu 1923-cü ildə Ağdaş rayonunun Qarağan Sədi kəndində anadan olmuşdur. 1930-cu ildə rayonun Qarağan - Şıxlar kənd 7 illik məktəbin 1-ci sinfinə getmiş, 1937-ci ildə həmin məktəbi bitirərək 1938-ci ildə Ağdaş Pedaqoji Texnikumuna daxil olmuşdur. Həmin ildən Ağdaş rayon Bulaqotağı kəndində müəllim kimi fəaliyyətə başlamışdır.

1941-ci ilin noyabr ayında hərbi xidmətə çağırılmışdır. Gürcüstan Respublikasının Batumi şəhərində 256-cı alayın 9-cu top atıcı divizyasında xidmətə başlamışdır. O divizyanın kəşfiyyat taqımında kəşfiyyatçı vəzifəsinə yiyələnmişdir. 1942-ci ildə Batumidən gəmi vasitəsilə Qafqaz dağlarında Kurxovski keçidə getmişdir, onun tərkibində olduğu 256-cı alayın üzvləri həmin əyalətdən döyüş meydanına getmişdir. Həmin dövrdə alayın üzvləri kəşfiyyata göndərilir, müxtəlif işlər görülür.

Bir gün komandanlığa göstəriş gəlir ki, Krasnodar vilayətinin Abinski rayonuna getmək, orada kəşfiyyat aparmaq, əməliyyat tədbiri üçün işlər görüblər. Hərbidə olduğu dövrdə çox gənc olduğu üçün onu müəyyən hissələrə göndərmişdilər. Kəşfiyyata gedən uşaqların çoxu geri qayıtmırdı. Həmin dövrdə o alayın komandirinə müraciət edərək onun göndərilməsini xahiş etmiş və komandirin cavabı ona qarşı belə olmuşdur ki, sən hələ çox cavansan, səni əsir tutsalar düşmənlər fikirləşər ki, sovet əsgərlərinin yaşlı nəsli qurtarıb. Cavan uşaqları orduya cəlb edirlər. O isə komandirə cavab olaraq bildirir ki, məni göndərin, mən vəzifəmi yerinə yetirim. İsrar etdikdən sonra Əvəz Umarovu kəşfiyyata göndərdilər. Orduda olduğu dövrdə verilən bütün tapşırıqları yerinə yetirmişdir. Böyük Vətən müharibəsindən sonra ölkəyə gəlmiş, rayonun Bulaqotağı, Ağcayazı, Pirəzə orta məktəbində işləri üzrə direktor müavini işləmiş, 1953-cü ildə Azərbaycan Dövlət İnstitutunun tarix fakültəsinə daxil olmuş, 1959-cu ildə həmin institutu bitirmişdir.



Ümumiyyətlə hazırki dövrə qədər rayonun müxtəlif məktəblərində müəllim, məktəb direktoru vəzifələrində işləmişdir.

1988-ci ildə fərdi təqaüdə çıxmışdır. Təqaüdçü olduğuna baxmayaraq rayonun ictimai işlərində iştirak edir. Gənclərin hərbi xidmətə çağırıldığı zaman o onların yığıncaqlarında iştirak edir, gənclərə hərbi vətənpərvərlik haqqında danışır. Veteranımıza cansağlığı arzu edirik.

ŞAH SƏLİMOV

## Biz "Vətən naminə, ura!"- deyərək döyüşə atılırdıq...



Şiriyev Sarıbala Səfər oğlu 1921-ci ildə Masallı rayonunun Ərkivan qəsəbəsində anadan olmuşdur. 1930-1940-cı illərdə Ərkivan kəndində orta məktəbi bitirdikdən sonra 1941-ci ildə Masallı Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. 1942-ci ildə Krım cəbhəsində gedən döyüşlərdə yaralanmış və xəstəxanaya düşmüşdür. Sağaldıqdan sonra yenidən döyüşə yollanmışdır.

Sarıbala Şiriyev həmin günləri belə xatırlayırdı: "Mən də azərbaycanlılardan ibarət qoşun hissəsində döyüşürdüm. Düşmən hər cəhətdən üstün olsa da bizim əsgərlərimiz mənəviyyatca üstün idi. Biz "Vətən naminə, ura!"- deyərək döyüşə atılırdıq. Heç nədən qorxmurduq, qələbəyə inanırdıq.

2 may 1945-ci ildə Çexoslovakiya ərazisində Alp dağları ətəyində gedən şiddətli döyüşlərin birində gözlərimdən yaralandım və bir gözümü ömürlük itirdim. Müharibə mənim üçün sona çatdı. Qələbə xəbərini xəstəxanada aldım. Sevincimin həddi-hüdudu yox idi. 1-ci qurup əlil kimi evə qayıtdım."

Müharibədən qələbə ilə qayıdan Sarıbala Şiriyev təhsilini ali məktəbdə davam etdirir və riyaziyyat müəllimi olur. 54 il pedaqoji fəaliyyətlə məşğul olur. Gənclərin həm təhsil almaları sahəsində, həm də vətənpərvərlik ruhunda tərbiyə olunmasında səmərəli fəaliyyət göstərir. S. Şiriyev pedaqoji fəaliyyətlə yanaşı fərdi təsərrüfatla da məşğul olurdu. Əsas hobbisi sağlam arı ailəsi bəsləmək və yüksək keyfiyyətli bal istehsal etmək idi.

Sarıbala müəllim nüfuzlu el ağsaqqalı idi, rayon Ağsaqqallar Şurasının fəal üzvlərindən idi. O təşəbbüsü və yaxından maddi yardımı ilə yaşadığı Pələnküştə məhəlləsində məscidin tikilməsinə nail olmuşdur.

Böyük Vətən müharibəsində fəal iştirakına görə 2 orden və çoxsaylı medallarla təltif olunmuşdur.

## BİR VETERANLA GÖRÜŞÜM

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VI plenumu bir çox məqamlarla yaddaqalan oldu. Mənim üçün isə ən başlıcası dəyərli veteranlarımızla daha yaxından tanış olmaq, onların çətin və alovlu döyüş yollarını qısa zamanda da olsa "birgə addımlamaq" kimi hissləri yaşamaq bu görüşlərin hərarətini, vətənə olan məhəbbətlərini təmsil etdiyim Masallı rayonuna gətirib gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsinə sərf etmək oldu. Belə şəxsiyyət-ağsaqqallardan biri Böyük Vətən müharibəsi iştirakçısı, hüquq-mühafizə orqanları veteranı, 1921-ci il təvəllüdlü Əlikişi Cümşüdovdur.



Ə. Cümşüdov müharibəni Qələbə ilə başa vurduqdan sonra doğma el-obasına-Qubadlıya qayıdır və milis orqanlarında işə düzəlir. Orada ləyaqətlə çalışır, çalışdığı müddətdə "Daxili İşlər Orqanlarında qüsursuz xidmətlərə görə", "Milis əlaçısı" döş nişanı və digər medallarla təltif olunur, o cümlədən "usta məharət (ali ixtisas) dərəcəsi"nə layiq görülür.

Döyüş orden və medalları ilə yanaşı xidməti medalları da sinəsini bəzəyir ağsaqqal veteranın...

Övladları həyat yolunu doğru seçmiş Əlikişi bəy öz arzusunu belə ifadə etdi: " 2-5 aprel 2016-cı il döyüşlərinə kimi belə hesab edirdim ki, mənim ömrüm torpaqlarımızın işğaldan azad olunmasını görməyə çatmayacaq. Bu döyüşlərdə ordumuzun zəfər döyüşləri mənim fikirlərimi dəyişdi. Hər gün qələbə xəbərini gözləyirəm və bilirəm ki, bu xəbər lap yaxındadır."

Hörmətli ağsaqqalımıza bütün Azərbaycan xalqının bu şad xəbəri gözlədiyini dedim. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı, möhtərəm Prezidentimiz İlham Əliyev dediyi kimi: "Gün gələcək Azərbaycanın üçrəngli bayrağı Xankəndində, Şuşada və işğaldan azad olunmuş bütün rayonlarımızda dalğalanacaqdır. Bizim xalqımız da buna əmindir".

Masallı rayonu veteranları adından ağsaqqal veteranımıza möhkəm cansağlığı arzu edirik. Hörmətli, Əlikişi müəllim, o gün olsun 100 yaşınızı qeyd edək!

MƏMMƏDAĞA ŞİRİYEV

## Rəhmanov Sabir Cabir oğlu

Bəşər tarixində ən dəhşətli müharibə olan II Dünya müharibəsində alman faşizmi üzərində tarixi qələbədən 72 il ötür. Qələbədən keçən bu 72 il ərzində neçə nəsil dəyişdikcə, gəncliyi müharibənin odu-alovu içərisində keçən insanların sırası da getdikcə azalır. Bu insanlardan biri II Dünya müharibəsi və əmək veteranı Rəhmanov Sabir Cabir oğludur. O, 20 oktyabr 1924-cü ildə Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. 1931-ci ildə Mərdəkandakı 123 № məktəbin 1-ci sinfinə getmiş, həmin məktəbin 8-ci sinfini bitirdikdən sonra ailəsi ilə birgə Bakı şəhərinə köçmüş və 132 saylı məktəbdə təhsilini davam etdirmişdir. Arzusu təhsilini başa vurduqdan sonra rəssamlıq məktəbinə getmək olmuşdur. 1941-ci ildə müharibənin başlanması ilə arzusu yarımçıq qalmışdır.1941-ci ilin dekabr ayında könüllü ərizə verərək ordu sıralarına getmək istədiyini bildirir və onu Bakıdakı hərbi komisarlığından 2-ci Tbilisi hərbi komandirlər məktəbinə göndərirlər. 1942-ci ilin avqust ayında Qafqaz cəbhəsinə 394-cü diviziyanın 815-ci alayın 1-ci batalyonuna göndərilir. Həmin hissədə Rostova qədər hərəkət etdikdən sonra Ali Baş komandanın əmri ilə hərbi məktəb qurtarmış döyüşçülər geri çağrılır və bir aylıq hazırlıqdan sonra kiçik leytenant rütbəsi ilə 402-ci piyada Azərbaycan diviziyasına göndərilir. Həmin diviziyanın 840-cı alayın 1-ci bölüyündə minaatan taqımda manqa komandiri vəzifəsində Ukranyada döyüşən orduda xidmət edir. Sonralar 88-ci və 90-cı əlahiddə alaylarda xidmət edir.

1944-cü ilin oktyabr ayında yenidən 402-ci Azərbaycan diviziyasının 840-cı alayın 1-ci batalyonunda minaatan taqımın komandiri olur. İsmayıl Vəliyevin müəllifi olduğu "Azərbaycan Milli Divizayaları Böyük Vətən müharibəsində" kitabında Rəhmanov Sabir Cabir oğlu haqqında məlumat verilmişdir. 1947-ci ilin fevral ayında səhhəti ilə əlaqədar ordudan tərxis olunur.



Müharibədə göstərdiyi xidmətlərə görə bir sıra orden və medallarla təltif olunmuşdur. Qələbənin 40 illik yubileyi ilə əlaqədar Azərbaycan KP MK-nın Ali Sovetinin və Nazirlər Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir. 1947-ci ilin aprel ayından 1949-cu ilin mart ayına qədər Mərdəkan və Zirə qəsəbələrindəki məktəblərdə hərbi müəllim işləmişdir. Ailə qurmuş, üç övladı dünyaya gəlmişdir. 1949-cu ilin mart ayından 1997-ci ilin avqust ayına qədər Yeyinti Sənayesi Nazirliyinin Mərdəkan qəsəbəsindəki 13 № çörək zavodunda müxtəlif vəzifələrdə çalışmış uzun müddət zavodda həmkarlar ittifaqının sədri olmuşdur. 1953-cü ildən KP-nin üzvü olmuşdur. İşlədiyi müddətdə yüksək əmək göstəricilərinə görə dəfələrlə nazirliyin fəxri fərmanları ilə təltif edilmişdir. Fəal ictimaiyyətçi və həvəskar rəssam kimi qəsəbənin ictimai işlərində yaxından iştirak etmişdir. Yerli Sovetə seçkilərdə dəfələrlə qəsəbə sovetinə nümayəndə seçilmişdir. Veteranlar Təşkilatı yarandığı gündən təşkilatın üzvü olmuş, uzun illər Əzizbəyov (indiki Xəzər) Rayon Veteranları Təşkilatında katib, Mərdəkan qəsəbəsi ilk veteran təşkilatının sədri vəzifəsində çalışmışdır. 2008-ci ilin oktyabr ayında vəfat etmişdir.

ŞƏRQİYYƏ SABİRQIZI

AZƏRBAYCAN VETERANI

# Ömrünü kosmosa həsr etmiş azərbaycanlı

Azərbaycanlı general Kərim Kərimovun adı əsrin dörddə biri qədər dövrdə ailəsindən başqa heç kəsə məlum olmayıb. Onun fəaliyyəti Amerika kosmik agentliyinin diqqətindən yayınmayıb və MKİ onunla əlaqəyə uğursuz cəhdlər edib. Bu gün beynəlxalq ictimaiyyət məşhur tarixi — Kosmonavtika gününü qeyd edir. Məhz 56 il əvvəl, 12 aprel 1961-ci ildə sovet təyyarəçisi Yuri Alekseyeviç Qaqarin "Vostok-1" kosmik gəmisində, Orta Asiyanın Baykonur kosmodromundan kosmosa uçub. Dünyada insanın açıq kosmosa ilk uçuşu 108 dəqiqə çəkib. Qaqarin Yer kürəsi ətrafında dövr edib və Saratov vilayətində yerə enib. Bununla da tarixə ilk kosmonavt kimi düşüb. Bu münasibətlə ona SSRİ-də ən yüksək rütbə olan Sovet İttifaqı Qəhrəmanı adı verilib. 12 aprel isə bu hadisədən 1 il sonra, 1962-ci ildə Kosmonavtika Günü kimi rəsmi status alıb. Altı ildən sonra isə bu gün Beynəlxalq Kosmonavtika günü statusunu qazanıb.

Kosmosa getmək istəyənlərə şad xəbər Qaqarinin uçuşu daha sonra Titovun, Nikolayevin, Popoviçin, Tereşkovanın və bizim planetin digər sakinlərinin kosmosa yolunu aydınlaşdırıb. Kosmosa əsas diqqəti sovet hökuməti ayırıb. Kosmonavtlar SSRİ rəhbərliyinin qayğısı ilə əhatələniblər. Şəxslər olub ki, onlar kosmosun sirrinin açılmasında elm qarşısında çox böyük xidmətlər göstəriblər, amma onları kosmik proqramların sirlərinin sərt şəkildə qorunması səbəbindən heç kim görməyib. Onlardan biri, böyük alim, baş layihəçi Sergey Korolyov idi. Uzun müddət heç kəsin tanımadığı belə adamlardan biri də bizim həmyerlimiz olub. Azərbaycanlı general Kərim Kərimovun adı əsrin dörddə biri qədər dövrdə ailəsindən başqa heç kəsə məlum olmayıb. Onu üzdən ancaq SSRİ-nin ali rəhbərliyi tanıyıb. Bu adamın fəaliyyətləri Amerikanın NASA agentliyinin nəzərindən yayınmayıb və MKİ onunla əlaqə qurmaq üçün uğursuz cəhdlər edib. General Kərim Kərimov əfsanəvi şəxsiyyət, sovet kosmik proqramlarının atalarından, qurucularından biri idi. 1966-cı ildən 1991-ci ilə qədər general özü şəxsən kosmosa ekipajın göndərilməsinə razılıq verib və Yerə qayıtdıqdan sonra onların raportlarını şəxsən qəbul edib.

Kərim Abbasəli oğlu Kərimov 14 noyabr 1917-ci ildə Bakının Pirşağı qəsəbəsində ziyalı ailəsində anadan olub. 1941-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirən Kərim Kərimov elektromexanika üzrə mühəndis diplomu alıb.

Onun bəzi ideyaları hərbi mühəndisləri maraqlandırmışdı. Artıq bu dövrdə İkinci Dünya Müharibəsi gedirdi. Radiomühəndislərə cəbhələrdə böyük ehtiyac duyulsa da, gənc mütəxəssisin istedadı nəzərə alınaraq 1942-ci ildə ona Dzerjinski adına Artilleriya Akademiyasına daxil olmaq üçün təyinat vermişdilər. Maraqlıdır ki, bilikləri yoxlanıldıqdan sonra Kərim Kərimov birbaşa akademiyanın V kursuna qəbul olunmuşdu. Beləliklə o, 1943-cü ildə bu təhsil müəssisəsini topçu-mühəndis ixtisası üzrə başa çatdırmış, "Katyuşa" adı ilə tanınan BM-13 yaylım atəş qurğusu üzrə mütəxəssis kimi hazırlanmışdı.

Qvardiya minaatan hissələrinin tərkibində olan bu qurğular Sovet İttifaqının ən güclü silahı kimi məxfi saxlanılırdı. Gənc mütəxəssis Qvardiya minaatan hissələri Baş İdarəsinin müvəkkili kimi BM-13 qurğusu üçün mərmilərin zavodlarda istehsalına nəzarət etmək tapşırığı almışdı. General-leytenant Kərim Kərimov daim silahın təkmilləşdirilməsi barəsində düşünürdü və bu istiqamətdə bir neçə dəyərli təklif də irəli sürmüşdü. Məhz həmin vaxtdan Kərim Kərimov həyatını raket texnikası ilə bağlamışdı. Ömrünün sonunadək o, raket texnikasının yaradılması və inkişafı naminə var gücü ilə çalışmış, zehni və fiziki qüvvəsini əsirgəməmişdi. Zavodlarda işlədiyi dövrdə onun yüksək təşkilatçılıq qabiliyyəti də özünü büruzə vermişdi. 1945-ci ildən SSRİ Müdafiə Nazirliyi sistemində raket texnologiyaları yaradan konstruktor büroları və zavodlarında çalışan Kərim Kərimov bir neçə elmi ixtiranın müəllifi olmuşdu. 1946-cı ildən başlayaraq o, ballistik raketlərin radioölçmə sistemlərinin yaradılması istiqamətində işlər aparmışdı. Onun araşdırmaları nəticəsində yaradılan raketlərin daxili parametrlərinə nəzarət edən "Don" radioölçmə sisteminin elmi-texniki göstəriciləri sonradan kosmik sənayedə tətbiq olunmağa başlanmışdı. Bu nailiyyətinə görə Kərim Kərimov 1950-ci ildə ilk dəfə SSRİ Dövlət mükafatına layiq görülmüşdü.

Baykonur kosmodromunun əsası qoyulan gündən o, Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının tərkibinə daxil edilmişdi. Kosmik aparatların yaradılmasında, dünyada ilk dəfə insanın kosmosa göndərilməsində onun da rolu az olmamışdı. Kərim Kərimovun iştirakı ilə yerin ilk süni peyki buraxılmışdı. "Zenit" raket-kosmik kompleksinin tətbiqinə görə o, Lenin mükafatına layiq görülmüşdü. İlk kosmonavt Yuri Qaqarinin tarixi uçuşu uğurla başa çatdıqdan sonra Kərim Kərimov SSRİ-nin ən yüksək ordeni — Lenin ordeni ilə təltif edilmişdi.





1945-ci ildə böyük mühəndis vəzifəsində çalışmağa başlayan Kərim Kərimov 1965-ci ildə Kosmik Vasitələr İdarəsinin rəisi vəzifəsinə təyin edilmiş, Ümumi Maşınqayırma Nazirliyinə ezam olunmuşdu. Yeni yaradılan bu nazirlik kosmik sənayenin bütün müəssisələrini özündə birləşdirirdi. Lakin K.Kərimovun istedadını və təşkilatçılıq qabiliyyətini yüksək qiymətləndirən məşhur konstruktor S.P.Korolyov 1966-cı ildə təkidlə onun Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının sədri təyin edilməsinə nail olmuşdu. O, bu məsul vəzifədə 25 il çalışmışdı (1991). Kosmik uçuşlarla bağlı bütün sistemlərin hazırlığını yoxlayan, uçuşun başlanmasına icazə verən məhz Kərim Kərimov idi. Kosmik səyahətə çıxan və tapşırığı yerinə yetirib geri dönən uçuş heyətlərinin hesabatlarını qəbul edərək heç vaxt televiziya reportajlarına düşməyən şəxs də Kərim Kərimov idi.

1967-ci ilin oktyabrında orbitə ilk dəfə iki pilotsuz kosmik aparatın ("Kosmos-186" və "Kosmos-188") göndərilməsi nəticəsində Kərimov general-leytenant rütbəsi alıb. 1974-cü ildə Kərimov əsas vəzifəsi ilə paralel olaraq Mərkəzi Elmi-Tədqiqat Maşınqayırma İnstitutu direktorunun birinci müavini kimi elmi-təşkilatçılıq fəaliyyətinə qatılıb. 1975-ci ildə "Soyuz-Apollon" gəmisində sovet-Amerika birgə uçuşunun hazırlanmasına rəhbərlik edib.

ABŞ kosmosa yeni raket sistemi göndərdi O dövrdə sovet kosmonavtikasının fəxri sayılan, alim-mühəndis zehninin qələbəsi kimi qəbul edilən kosmik aparatlar onun fəal iştirakı və birbaşa rəhbərliyi ilə yaradılmışdı. Onların sırasında yeni nəsil "Soyuz" kosmik gəmiləri, "Salyut" orbital stansiyası, sonradan isə çoxmodullu "Mir" stansiyasının adlarını çəkmək olar.

Azərbaycanla əlaqəni kəsməyən, Azərbaycan Elmlər Akademiyasının Aerokosmik Tədqiqatlar Mərkəzinə əlindən gələn köməkliyi göstərən general bir çox azərbaycanlı alimin bu sahədə fəaliyyət göstərib inkişaf etməsi üçün şərait yaratmışdı.

1991-ci ildə 74 yaşında istefaya çıxan Kərimov ömrünün sonunadək kosmik sahə ilə əlaqəsini kəsməmiş, Uçuşları İdarəetmə Mərkəzinin məsləhətçisi olmuşdu. İstehsalat-təşkilat və elmi fəaliyyətinə görə general-leytenant Kərim Kərimov Sovet İttifaqı Qəhrəmanı fəxri adına, iki dəfə Lenin ordeninə, Qırmızı Əmək Bayrağı, Qırmızı Ulduz ordenlərinə layiq görülmüş və çoxlu medalla təltif olunub. Kərim Kərimov 2 dəfə dövlət mükafatı almışdı. O, həmçinin Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü seçilmişdi.

General-leytenant Kərim Kərimov 29 mart 2003-cü ildə 86 yaşında Moskva şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdu. O, bu gün də ehtiramla yad edilir. Uzun və mənalı ömrünü kosmosa həsr edən bu şəxsin intellektinin məhsulları planetlərarası əhəmiyyət daşıyır.

# Qəhrəmanlar heç zaman unudulmur

1895-ci ildə Şamaxıda anadan olan Tərlan Əliyarbəyov 1908-ci ildə səkkizillik şəhər məktəbini bitirdikdən sonra Şimali Qafqaza gedib kadet korpusuna daxıl olmaq istəyir. Lakin atası Abdullanın qəfil ölümü onun hərbi məktəbə getməsinə mane olur. Tərlan Əliyarbəyov yalnız 1911-ci ildə Tiflisə gedib Mixaylovski hərbi mərtəbinə daxil olur.

1911-ci ildə Qafqaz alayının əlaçı əsgəri Əliyarbəyovu Tiflisdəki piyada hərbi məktəbinə oxumağa göndərirlər. Dördillik kursu müvəffəqiyyətlə keçən istedadlı həmyerlimiz hərbi mərtəbi birinci dərəcəli diplomla bitirir və Şamaxıda 205-ci piyada alayında xidmət etməyə başlayır.

1914-cü ilin yayında 1-ci Dünya müharibəsi başlanır, Kayzer Almaniyası Rusiyaya müharibə elan edir.

T.A.Əliyarbəyovun xidmət etdiyi 205-ci alayı da Qərb cəbhəsinə göndərilir, od-alovdan keçən səngərlərdə gənc zabitin çətin sınaq günləri başlayır. 1918-ci ilin avqustunda Azərbaycan Xalq Cümhuriyyəti ordusuna çağrılan T.A.Əliyarbəyov 2-ci alay komandirinin köməkçisi təyin edilir. 1920-ci ilin baharında T.A.Əliyarbəyov artıq Bakı Hərbi İdarə rəisinin müavini idi. Döyüşlərdə böyüyüb bərkimiş T.A.Əliyarbəyov könüllü olaraq Qızıl ordu sıralarına yazılır.

1922-ci ildə Frunze adına hərbi Akademiyanı bitirdikdən sonra Bakıya qayıdan T.A.Əliyarbəyov həyatını milli hərbi kadrların yetişdirilməsinə sərf etmişdir. O, ikinci dəfə bu hərbi akademiyanı bitirdiyi il ölkəmizi faşizm taunu bürüdü.

Böyük Vətən müharibəsi başlananda polkovnik Tərlan Əliyarbəyov 416-cı atıcı diviziyanın komandir müavini, 3 ay sonra isə onun komandiri təyin edildi.

Diviziya 1942-ci il noyabrın 30-da Trek çayı sahilində düşmənlə ilk dəfə döyüşə girdi. İki günlük döyüşdə sonra İsikarel rayonunda faşistlərin müdafiə xətti yarıldı, Novoledven və Kapustino yaşayış məntəqələri azad edildi.

44-cü ordunun tərkibində olan bu diviziya 1941-ci ilin qışında Şimali Qafqazda 350 km-lik döyüş yolu keçərək, onlarla şəhər və kəndi düşməndən azad etdi.

Müharibə illərində Əliyarbəyovun döyüş xidmətlərini yüksək qiymətləndirən Sovet hökuməti onu 1944-cü



il fevralın 9-da general-mayor rütbəsi ilə təltif etmişdir.

1955-ci ildə vəfat edən generalın iki oğlu qalıb. Onun xidmətləri "Lenin", "Qırmızı Ulduz", "Qırmızı Bayraq" ordenləri və çoxlu medallarla təltif olunub, Şamaxı şəhərində adına küçə verilib. Xalq öz qəhrəman oğullarını heç zaman unutmamalıdır.

İSMAYIL İSMAYILOV

# Veteran - bombardımançı təyyarənin heyət üzvü

Damət Nəbiyev 1925-ci ildə Yevlax rayonunun Vərvərə kəndində anadan olub. 1943-cü ilin fevralında 17 yaşında müharibəyə yollanır. O zaman Azərbaycandan iki hərbçidən biri kimi qəhrəmanımız bombardımançı təyyarəçi kurslarına göndərilir. "1943-cü ilin fevralın 15-də mən orduya yazıldım. Ölkə təhlükədə idi və hər birimiz Vətənin müdafiəsinə qalxmalıydıq. Bizi Sumqayıtın ehtiyat alayına gətirdilər. Heç bir ay keçməmişdi, iki zabit gəlib aramızdan iki nəfəri Gürcüstandakı Aviasiya məktəbində oxumaq üçün seçdi. Onlardan biri də mən idim", -deyə veteran xatirələrini danışır. Daməd Nəbiyev Ukrayna, Polşa ətrafında döyüşlərdə iştirak edib və Berlinə qədər döyüş yolu keçib. "İndiyə kimi yadımdadır. Varşava üzərində yedinci uçuşum idi, dostum yaralanmışdı, bizi atəşə tutmuşdular. Bir mühərrik zədələnəndən sonra, Visla şəhərinin ətrafında məcburi enməli olduq. Yaxşı ki, ərazi salamat idi və biz xilas olduq", -deyə Damət Nəbiyev xatırlayır. Qəhrəmanımızın heyəti Varşavanın azad olunmasında iştirak edib, sonuncu döyüş uçuşunu isə onlar 1945-ci il 2 may tarixində Berlin səmasına edib. "Mən Qələbə günündək döyüşmüşəm. Dostlarımın çoxu həlak olub, bir çoxu yaralanıb. Özüm sinəmdən və başımdan yaralanmışam, paraşutla tullananda, bilmirəm, necə sağ qalmışam. Biz həmişə qələbə çalacağımıza inanırdıq", -deyir veteran. Bundan başqa Damət Nəbiyev üç il Ağdamda, 1973-cü ilədək isə Gəncədə xidmət çəkib. O, uzun müddət cavanların



hərbi hazırlığı ilə məşğul olub, mühazirələr oxuyub. Müharibə veteranı Azərbaycan torpağında böyüyüb başa çatdığı ilə fəxr edir.

# Bəkir Xanlar oğlu Məmmədov

Bəkir Xanlar oğlu Məmmədov, 1920-ci ildə Ağdaş rayonunun Körpükənd kəndində ziyalı ailəsində anadan olmuşdur. 1936-cı dərs ildə Göyçay Pedaqoji Texnikomuna daxil olmuş, 1940-cı ildə texnikomu bitirdikdən sonra Zərdab rayonunun Körpükənd kəndinə ibtidai sinif müəllimi kimi göndərilmişdir. 1941-ci ildə növbəti çağırışa əsasən hərbi xidmətə getmiş, 1941-1945-ci illər ərzində müxtəlif döyüş zonalarında iştirak etmişdir.

Birinci döyüşə Belarus Respublikasının Qomel şəhərinə düşmüş, 1946-cı ildə əsgərlikdən azad olub evinə qayıtmışdır. "Berlin uğrunda qələbə", "Stalinqrad uğrunda qələbə", Belarusiya uğrunda qələbə", "Qvardiya medalları", o cümlədən, Belarusiyanın azad olunmasına görə Belarusiya Prezidenti A.Lukaşenko cənabları tərəfindən təşəkkümamə



və medalla təltif olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra 1946-cı ildə onu Zərdab rayonunun 10 illik məktəbində müəllim kimi çalışmışdır. Böyük Vətən Müharibəsinin II qrup əlilidir. Ailəlidir, üç övladı var.

# Baxışov Seyfulla Abdulla oğlu

Baxışov Seyfulla Abdulla oğlu 19 iyun 1925-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. 1943-cü ildə hərbi xidmətə çağrılmış, oradan hərbi məktəbə göndərilmiş və ona çavuş rütbəsi verilmişdir. Hərbi təhsilini başa vurduqdan sonra 840 - cı atıcı artelleriya alayına göndərilmiş və orada bölük komandiri vəzifəsinə təyin edilmişdir. Q a f q a z d a , Rusiyada, Ukraynada bir sıra hərbi əməliyyatlarda, Moskva, Sevastopol kimi şəhərlərin müdafiəsində iştirak etmişdir. Müharibədən sonra 1948ci ilə qədər Sovetlər Birliyinin sıralarında qulluq etmiş, daha sonra neft sahəsində fəaliyyət göstərmişdir. Aktiv iş fəaliyyətinə onu görə partiya




təşkilatının sədri təyin etmişdirlər. Bir müddət sonra Suraxanı rayonu üzrə millət vəkili seçilmişdir. O, həyatı boyu müxtəlif orden və medallara layiq görülmüşdür.

AZƏRBAYCAN VETERANI

# Biz Qələbənin varisləriyik

## Böyük Tarixi Qələbənin 72 illiyi

*"Bəşər tarixində müharibələr çox olmuşdur. Bu müharibələrin qanlı izləri, vurduğu yaralar Yer üzərində heçvaxt sağalmır. Tarixdə ən sarsıdıcı müharibələrdən biri də II Dünya müharibəsidir."*

*H.Əliyev*

Faşizm üzərində böyük tarixi Qələbədən illər keçsədə, bir-birini əvəz edən nəsillər onu heç vaxt unutmayacaq və həmişə yadedəcəklər. Çünki bugün fəxr və qürur hissi ilə 72-ci ildönümünü qeyd etdiyimiz Qələbə heç də asan başa gəlməyib, milyonlarla insanın qanı-canı bahasına qazanılıb. Bəşər tarixinin ən qanlı müharibəsi hesab olunan İkinci Dünya müharibəsində 50 milyondan çox insan həyatını itirib, milyonlarla insan yaralanıb, əlil olub, itkin düşüb. Minlərlə şəhərə, kəndə böyük ziyan dəyib. Bununla belə, qalibiyyət sevinci insanlara bütün ağrı-acını unutdurmuşdu. Səməd Vurğunun "Zəfər bayramı" şeirinin misraları o zamankı Qələbə sevincini sanki gözlərimizin önündə canlandırır:

*Qoy çalıb oynasın Vətən torpağı,*
*Göylər səcdə qılsın bu ülviyyətə.*
*Ölümün, zülmətin qara bayrağı*
*Bugün təslim oldu bizim qüdrətə!*
*Yazılsın tarixə bir qızıl xətlə*
*45-ci ilin doqquz may günü.*
*Başlansın şeirlə, sazla, söhbətlə*
*Bu ellər bayramı, ellər düyünü...*

Azərbaycanın bu Qələbəyə töhfəsindən uzun-uzun danışmaq olar. Döyüşən ordunu yanacaqla təmin edən neftçilərimizin, yeni silah növləri ixtira edən alimlərimizin, ön cəbhədə şücaət göstərərək döyüşən, arxa cəbhədə yorulmaq bilmədən çalışan igid, qəhrəman Vətən övladlarının rəşadəti bahasına başa gəlmişdi bu Qələbə! Bakıda bir sıra müəssisələr hərbi texnika vasitələri istehsal etməyə başlanmış, təkcə 1942-1943-cü illərdə Azərbaycandan cəbhəyə 220 vaqon hədiyyə, minlərlə dəst geyim əşyası göndərilmişdi. Müharibənin ilk günlərindən respublikamızın onminlərlə vətəndaşı cəbhəyə yollanmışdı.

Azərbaycanın igid oğulları Mozdokdan Berlinə qədər şərəfli döyüş yolu keçmiş, qəhrəmanlıq nümunələri göstərmişdilər. Müxtəlif cəbhələrdə faşist qoşunlarına qarşı döyüşmüş, əksəriyyətini azərbaycanlılar təşkil edən diviziyalar böyük döyüş yolu keçmiş, Berlinin faşistlərdən azad olunmasında iştirak etmişdirlər. Bir sözlə, 1941-1945-ci illər müharibəsi bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadirolan qəhrəman xalqdır.

Ümumiyyətlə, İkinci Dünya müharibəsi tarixdə çox böyük iklərlə, qandonduran faktlarla yadda qaldı. O faktların bir neçəsini diqqətinizə çatdırmaq istəyirəm: Avropada 1923-cü ildə doğulan kişilərin 80%-i İkinci Dünya müharibəsi illərində həlak olmuşdur, Yaponların bu müharibədə öldürdükləri çinlilərin sayı "Holokost" qurbanı olan yəhudilərin sayından daha çox olmuşdur, Böyük Britaniya kraliçası II Yelizaveta müharibə vaxtı 5 ay sanitar, avtomobil sürücü-mexanikiolaraq xidmət etmişdir, Müharibə illərində metal qıtlığına



görə "Oskar" mükafatı gipsdən hazırlanırmış, Alman ordusu Parisi (Fransa) işğal edən zaman Adolf Hitler Eyfel qülləsinə çıxa bilməmişdi, çünki fransızlar qüllənin liftini qəsdən xarab etmişdilər, Yapon ordusunun əsgəri Hiroo Onoda İkinci Dünya müharibəsindən 27 il sonra təslim olmuşdu, "Yerkökü yeməyin daha yaxşı görməyə təsiri yoxdur" mifini müharibə illərində britaniyalılar ingilislərin alman qırıcılarını necə görməsi üsulunu gizlətmək məqsədilə yaymışdılar, Çexoslovakiya prezidenti Emil Haka Adolf Hitler ilə danışıqlar apardığı zaman ürəktutması keçirməsinə baxmayaraq, Almaniyanın Çexiyaya daxil olması ilə bağlı aktı imzalamışdı. Yapon Tsutomu Yamaguchi ABŞ hərbçilərinin Yaponiyanın Hirosimavə Naqasaki şəhərlərinə atdıqları hər iki atom bombasından sağ çıxmış, 93 yaşında xərçəngdən vəfat etmişdir. Müharibə illərində hərbi müəssisələrdə işçilərin 70 faizi qadınlar, qocalar və 12-13 yaşlı uşaqlar idi. Belə faktların sayını sonsuzadək artırmaq olar, lakin məqsədimiz bu deyil. Bütün bəşər övladları kimi bizim də arzumuz budur ki, belə qanlı müharibələr bir daha təkrarlanmasın!

Müharibədən zəfərlə dönmüş Azərbaycan veteranları bugün dövlət qayğısı, diqqəti ilə əhatə olunmuşlar. Vətən uğrunda mərdliklə döyüşmüş şəxslərə qayğıkeş münasibətin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyev qoymuşdur. O, veteranlara hər zaman yüksək qiymət vermiş, onları uca tutmuşdur: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğı və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

Mən isə bir gənc olaraq çox istərdim ki, lap yaxın günlərdə Azərbaycan Ordusunun mənfur erməni işğalçıları üzərində qazanacağı parlaq və mütləq qələbəsindən yazım, xalqımız çoxdan gözlənilən Qələbə xəbərini eşitsin. Ürəkdən inanıramki, o günə - İkinci Dünya savaşı qəhrəmanlarının layiqli varisi olan şanlı Milli Ordumuzun torpaqlarımızı yağıdan azad edəcəyi günə lap az qalıb. Çünki:

*Bu Vətən - torpağın qara bağrında*
*Sıra dağlar kimi duranlarındır!*
*Ölümdən qorxmayıb onun uğrunda,*
*Köksünü qabağa verənlərindir!*

SƏİDƏ ABDULLAYEVA

# Əbülfəz Həsənzadə



Əbülfəz Həsənzadə 1912-ci ildə Dəvəçidə anadan olmuşdur. 1938-ci ildə Azərbaycan Tibb Universitetini bitirmişdir, rayonun ilk ali təhsilli terapevt-həkimidir. Beş il 1943-cü ilədək Pirəbədil kənd tibb məntəqəsində müdir işləmiş, müharibə illərində çox geniş yayılmış qorxunc xəstəlik olan malyariyanın müalicəsində böyük xidməti olmuşdur. Gənc həkim Ə.Həsənzadəni bacarığına, təşkilatçılığına görə onu Şabran rayonu səhiyyə şöbəsinin müdiri təyin edirlər. O, 20 ilədək baş həkim kimi fəaliyyət göstərir, neçə-neçə insanları ölümdən qurtarır, yüzlərlə xəstəyə təmannasız tibbi yardım edərək onların şəfa tapmasında köməklik göstərir. O həmişə hakim andına sadiq qalmış və həkim adının təmizliyini qorumuşdur. İlk dəfə Qalaltı müalicəvi suyunun tərkibinin öyrənilməsində böyük rolu olmuşdur. Yaxşı həkim, yüksək bacarıqlı təşkilatçı kimi tanınmışdır. Urologiya sahəsində bir çox M.Cavadzadə, Ə.Əlizadə və s. kimi professorlarla çiyin-çiyinə çalışmışdır. Ə. Həsənzadə Samur-Dəvəçi kanalında çalışan inşaatçılara göstərdiyi tibbi xidmətinə görə SSRİ Xalq Komissarlığı tərəfindən "Səhiyyə əlaçısı" döş nişanı ilə mükafatlandırılmışdır. O cümlədən, "Qafqazın müdafiəsinə görə", "Əmək igidliyinə görə", 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi zamanı arxa cəbhədə fədakarlığa və çalışqanlığa görə bir sıra medallar, fəxri fərmanlar, ordemlərlə təltif olunmuşdur.

Əbülfəz Həsənzadə 1983-cü ildə vəfat etmişdir. Onu gözəl həkim kimi tanıyan, onun əlindən şəfa tapan insanlar heç zaman onu unutmayacaq.

GÜLNARƏ ƏLİSLAMQIZI

# “Aleksandr Nevski”ordenli cəngavərlərimiz




Bayramov Məmməd Qasım oğlu 1924-cü ildə Azərbaycanın Tovuz rayonunun Dondar-Quşçu kəndində anadan olmuşdur. Orta məktəbin 9 sinfini, sonra isə pedaqoji məktəbi bitirmişdir. 1942-ci ilin oktyabrında müəllim Bayramov Qızıl Orduya çağırıldı. Məmməd 77-ci atıcı diviziyanın (keçmiş Azərbaycan dağ-atıcı diviziyası) 105-ci atıcı alayına göndərilir. Bu zaman diviziya Dağıstanda yerləşərək yenidən formalaşdırılırdı. Diviziyanm əsgər və komandirlərinin 66%-ni azərbaycanlılar təşkil edirdi.

1942-ci ilin sonunda diviziya 58-ci Ordunun tərkibinə daxil oldu və 1943- cü ilin yanvarında Şimali Qafqazda bizim qoşunların hücumunda iştirak etdi. Qafqazın azad edilməsi uğrunda hücum döyüşlərində Məmməd Bayramov özünün ilk hərbi təcrübəsinə yiyələndi. 1943-cü il fevralın 2-də o, yaralandı və hospitala təxliyyə olundu.

Hospitalda sağalandan sonra 1943-cü ilin martında qızıl əsgər Bayramov Cənub cəbhəsinə 347-ci atıcı diviziyanın 1179-cu atıcı alayına göndərildi.

347-ci atıcı diviziyanın tərkibində Məmməd Solsahilli Ukraynanın düşməndən azad edilməsində iştirak etdi. 1943-cü ilin oktyabrında Melitopol şəhərinin düşməndən azad edilməsinə görə diviziyaya “Melitopol” fəxri adı verildi. Bu zaman Bayramov çavuş rütbəsində atıcı manqanın komandiri idi.

1943-cü ilin dekabrında komandanlıq təcrübəli kiçik komandir Məmməd Bayramovu 4-cü Ukrayna cəbhəsinin kiçik leytenant kurslarına göndərdi. 1944-cü il aprelin 19-da ona ilk zabit rütbəsi olan “kiçik leytenant” rütbəsi verildi. Məmməd Bayramov ona tanış olan 77-ci atıcı diviziyasına təyinat aldı. O, 324-cü atıcı alayın tərkibində atıcı taqıma rəhbərlik etməli idi. Bu 77-ci atıcı diviziyanın tarixində şərəfli anlardan biri idi - o, Krımın işğalçılardan azad edilməsi üçün nəzərdə tutulmuş qoşunların tərkibinə daxil edilmişdi. Diviziyanın alayları, düşməni Balaklava şəhərindən vurub çıxarandan sonra aprelin 19-da Sevastopolun yaxınlığında - Sapundağın cənub- şərq yamacında yerləşdilər. Şəhərin müdafiə sistemində vacib rol oynayan bu yüksəkliyin hücumuna hazırlıq başladı. Taqım komandiri Bayramov öz sahəsində düşmənin mühəndis qurğuları sistemi və atəş vasitələrinin mövqelərinin ciddi kəşfiyyatını təşkil etdi. 1944-cü ilin mayında Bayramovun taqımın döyüşçüləri hücuma tam hazır idilər. Yüksəkliyə hücum 9.30-da, saat yarımlıq artilleriya və aviasiya hazırlığından sonra başladı. 11.00-da Məmməd Bayramov öz tağımını hücuma qaldırdı. Öz bölməsinə bacarıqla rəhbərlik edən cəsur komandir düşmənin mövqelərini yandan keçdi və gözlənilmədən cinahdan kəskin zərbə endirdi. Vahiməyə qapılan hitlerçilər geri çəkilməyə başladılar. Vəziyyətdən istifadə edən Bayramovun taqımı düşmən mövqelərinə şığıdı və onun geri çəkilmə yollarını kəsdi. Nəticədə düşmənin 29 əsgər və zabiti əsir götürüldü. Məmməd Bayramovun döyüşçülərinin nümunəsi ilə digər bölmələr də irəli atıldı. Nəticədə diviziyanın hissələri Sapundağını ələ keçirdilər və düşməni təqib etməkdə davam etdilər.

51-ci Ordu qoşunları üzrə 97n saylı, 1944-cü il 7 iyun tarixli əmrə əsasən döyüşdə bölmənin hərəkətlərinə bacarıqla rəhbərlik etdiyinə və şəxsi şücaətə görə Məmməd Qasım oğlu Bayramov Aleksandr Nevski ordeni ilə təltif olundu.

1944- cü ilin yayında Krımda döyüşlər bitdikdən sonra 77-ci atıcı diviziya 51-ci Ordunun tərkibində Pribaltikaya göndərildi. Burada avqustda Məmməd Bayramov öz taqımı ilə Dobele rayonunda ağır müdafiə döyüşlərində iştirak etdi.

1945-ci ilin əvvəlində 77-ci atıcı diviziyanın alay Şimal şərqi Rusiya ərazisində düşməni məğlub edirdilər.

Qələbə gününü Məmməd Bayramov Kurlyandiyada Dzintari rayonunda qarşıladı. Müharibədən sonra kiçik leytenant Bayramov Azərbaycanın Laçın rayonunda hərbi komissarlıqda xidmət etmiş və 1946-cı ilin martında ehtiyata göndərilmişdir.

Məmməd Bayramov həmçinin “Qafqazın müdafiəsinə görə” və “ Almaniya üzərində Qələbəyə görə” medalları ilə təltif olunmuşdur.




Mövsüm Nəsir oğlu Balayev 1909-cu ildə Azərbaycanın Quba rayonunun Digəh kəndində anadan olub. 1927-ci ildə Qubada orta məktəbi bitirib. Komsomolçu Balayev komsomol təşkilatının işində fəal çalışıb və 1929-cu ildə ÜKP (b) sıralarına qəbul olunub. Qızıl Ordu sıralarmda hərbi xidməti Mövsüm 1932-ci ildə Azərbaycan diviziyasının süvari eskadro- nunda başlayıb. 1934-cü ildə Qızıl Ordunun sayının ixtisar olunması ilə bağlı uzunmüddətli məzuniyyətə buraxılıb.

Yenidən Qızıl Orduya Mövsüm Balayev müharibənin qızğın məqamda - 1943-cü ilin iyulunda çağırılıb. O, Zaqafqaziya cəbhəsinin Kiçik leytenantlar kurslarına oxumağa göndərilib. 1944-cü ilin martında təhsili bitirdikdən sonra, əla döyüş və taktiki hazırlıq nümayiş etdirmiş Mövsüm Balayevə, digər məzunlardan fərqli olaraq, “leytenant” rütbəsi verildi. Vuruşan Orduya göndərilən leytenant Balayev 57-ci motoatıcı briqadanm 2-ci motoatıcı taborunun pulemyot taqımının komandiri vəzifəsinə təyin olundu.

3-cü tank korpusunun tərkibində fəaliyyət göstərən briqada Ukraynanın cənubunun və Moldovanın azad edilməsi uğrunda döyüşlər aparırdı. Briqada ilə birlikdə Mövsüm Balayev şərəfli döyüş yolu keçmişdir. Martda Uman şəhərinin (Ukrayna) azad edilməsinə görə briqada fəxri “Uman” adına layiq görüldü. Dnestr çayını uğurla keçməsinə və Beltsı şəhərinin (Moldova) işğalçılardan azad etməsinə görə 1944-cü ilin aprelin 8-də briqadanın bayrağına Qırmızı Bayraq ordeni taxıldı.

